# KREDOBANK ASC

**31 dekabr 2010-cu il tarixinə**

**Beynəlxalq Maliyyə Hesabatı Standartlarına
Uyğun Maliyyə Hesabatları və
Müstəqil Auditorun Hesabatı**

**MÜNDƏRİCAT**

MÜSTƏQİL AUDİTORUN HESABATI

MALİYYƏ HESABATLARI

Maliyyə Vəziyyəti haqqında Hesabat....................1
Məcmu Gəlirlər haqqında Hesabat....................2
Səhmdar Kapitalında Dəyişikliklər haqqında Hesabat....................3
Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat....................4

Maliyyə Hesabatları üzrə Qeydlər.................... 5-63

**MÜSTƏQIL AUDİTORUN RƏYİ**

Kredobank ASC-nin Səhmdarlarına və Direktorlar Şurasına

***Maliyyə hesabatları üzrə auditor hesabatı***

Biz Kredobank ASC-nin 31 dekabr 2010-cu il tarixinə təqdim edilən maliyyə vəziyyətinə dair hesabatı, həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

***Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti***

Hazırkı maliyyə hesabatların Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və eləcə də saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminə görə Rəhbərlik məsuliyyət daşıyır.

***Auditorun məsuliyyəti***

Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurların auditorların mühafizəsindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisəsinin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir.

Bundan əlavə, audit yoxlamasına mövcud mühasibat siyasətinin uyğunluğunun və rəhbərliyin mühasibat təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, audit rəyimizi bildirmək üçün əsas verən kifayət qədər və uyğun auditor sübutu əldə etmişik.

***Rəy***

Bizim fikrimizcə, maliyyə heabatları bütün mühüm aspektlər baxımından Kredobank ASC-nin 31 dekabr 2010-cu il tarixinə olan maliyyə vəziyyətini, onun fəaliyyətinin nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq həmin tarixdə başa çatan il üçün düzgün əks etdirir.

Bakı, Azərbaycan
12 may 2011

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2010 | 31 dekabr 2009 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 3,381,317 | 6,737,029 |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | 8 | 91,002 | 75,863 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 9 | 62,871,695 | 44,275,104 |
| Təxirə salınmış vergi aktivi | 25 | - | 30,370 |
| Qiymətli kağızlar | 10 | 156,800 | 156,800 |
| Binalar və avadanlıqlar | 11 | 2,525,564 | 3,672,350 |
| Qeyri-maddi aktivlər | 12 | 7,626 | 6,583 |
| Digər maliyyə aktivləri | 13 | 7,181 | 7,228 |
| Digər aktivlər | 14 | 4,024,781 | 30,888 |
| **CƏMİ AKTİVLƏR** | | **73,065,966** | **54,992,215** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 15 | - | 401,550 |
| Müştəri hesabları | 16 | 11,396,439 | 13,616,624 |
| Müddətli borc öhdəlikləri | 17 | 44,559,001 | 26,588,006 |
| Təxirə salınmış vergi öhdəliyi | 25 | 7,794 | - |
| Digər öhdəliklər | 18 | 184,878 | 280,875 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **56,148,112** | **40,887,055** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 19 | 15,540,000 | 13,040,000 |
| Bölüşdürülməmiş mənfəət | | 1,377,854 | 1,065,160 |
| **CƏMİ KAPİTAL** | | **16,917,854** | **14,105,160** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **73,065,966** | **54,992,215** |

**İdarə heyəti adından:**

**İlqar Məlikov**

**İdarə Heyətinin Sədri**
**Vəzifəsini İcra Edən**

12 may 2011
Bakı, Azəbaycan Respublikası

**Aygün Zamanova**

**Baş Mühasib**

12 may 2011
Bakı, Azərbaycan Respublikası

| *Azərbaycan Manatı ilə* | Qeyd | 2010 | 2009 |
|---|---|---|---|
| Faiz gəlirləri | 20 | 6,310,710 | 4,672,318 |
| Faiz xərcləri | 20 | (3,230,840) | (2,575,851) |
| **KREDİTLƏR ÜZRƏ EHTİMAL EDİLƏN ZƏRƏRLƏRDƏN ƏVVƏL FAİZ GƏLİRİ** | | **3,079,870** | **2,096,467** |
| Müştərilərə verilmiş kreditlərin üzrə ehimal edilən zərərlər | | (1,883,976) | (1,614,822) |
| **XALİS FAİZ GƏLİRLƏRİ** | | **1,195,894** | **481,645** |
| Xarici valyuta əməliyyatları üzrə gəlir(xalis) | 21 | (122,553) | 92,227 |
| Haqq və komissiya gəlirləri | 22 | 476,520 | 914,829 |
| Haqq və komissiya xərcləri | 22 | (34,908) | (46,377) |
| Digər gəlirlər | 23 | 237,851 | 193 |
| **XALİS QEYRİ-FAİZ GƏLİRLƏRİ** | | **556,910** | **960,872** |
| **ƏMƏLİYYAT GƏLİRLƏRİ** | | **1,752,804** | **1,442,517** |
| **ƏMƏLİYYAT XƏRCLƏRİ** | 24 | **(1,356,842)** | **(1,368,786)** |
| **Vergidən əvvəlki mənfəət/(zərər)** | | **395,962** | **73,731** |
| Mənfəət vergisi xərci/(gəliri) | 25 | (83,268) | 60,239 |
| **İL ÜZRƏ XALIS MƏNFƏƏT/(ZƏRƏR)** | | **312,694** | **133,970** |
| **Digər məcmu gəlirlər:** | | | |
| **İl üzrə digər məcmu gəlirlər** | | - | - |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİRLƏR** | | **312,694** | **133,970** |
| **Bankın səhmdarlarına düşən mənfəət üçün səhm üzrə mənfəət/(zərər)** (bir səhm üzrə AZN ilə) | 26 | **201.21** | **102.74** |

**İdarə heyəti adından:**

| | |
|---|---|
| **İlqar Məlikov** | **Aygün Zamanova** |
| **İdarə Heyətinin Sədri Vəzifəsini İcra Edən** | **Baş Mühasib** |
| 12 may 2011 | 12 may 2011 |
| Bakı, Azəbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

| *Azərbaycan Manatı ilə* | **Qeydlər** | **Səhmdar kapitalı** | **Ötən illərdəki kapital** | **Səhmdar kapitalının cəmi** |
|---|---|---|---|---|
| **31 dekabr 2008** | | **13,040,000** | **931,190** | **13,971,191** |
| Səhmdar kapitalının artırılması: | | | | |
| -*adi səhmlər* | 19, 26 | - | - | - |
| Xalis mənfəət | | - | 133,970 | 133,970 |
| **31 dekabr 2009** | | **13,040,000** | **1,065,160** | **14,105,160** |
| Səhmdar kapitalının artırılması | | | | |
| -adi *səhmlə* | 19, 26 | 2,500,000 | - | 2,500,000 |
| Xalis mənfəət | | | 312,694 | 312,694 |
| **31 dekabr 2010** | | **15,540,000** | **1,377,854** | **16,917,854** |

**İdarə heyəti adından:**

**İlqar Məlikov**

**İdarə Heyətinin Sədri**
**Vəzifəsini İcra Edən**

12 may 2011
Bakı, Azəbaycan Respublikası

**Aygün Zamanova**

**Baş Mühasib**

12 may 2011
Bakı, Azərbaycan Respublikası

| *Azərbaycan Manatı ilə* | Qeydlər | 31 dekabr 2010-ci bitən il üzrə | 31 dekabr 2009-ci bitən il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL:** | | | |
| Vergidən əvvəlki mənfəət | | 395,962 | 73,731 |
| Düzəlişlər: | | | |
| Kreditlər üzrə ehtimal edilən zərərlər | 9 | 1,883,976 | 1,614,821 |
| Xarici valyuta əməliyyatları üzrə məzənnə fərqi | 21 | 179,894 | (84,268) |
| Amortizasiya xərcləri | 11,12 | (61,394) | 216,086 |
| Hesablanmış faizlərdə xalis dəyişmələr | | (794,643) | (588,504) |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişmələrdən əvvəlki məliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri | | 1,603,795 | 1,231,866 |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişmələr | | | |
| Əməliyyat aktivlərində (artımlar)/azalışlar: | | | |
| ARMB-dakı depozitlər üzrə minimum ehtiyatlar | | (9,572) | 387,637 |
| Banklara verilmiş avans və kreditlər | | (15,139) | (14,308) |
| Müştərilərə verilmiş kreditlər | | (19,544,624) | (20,074,125) |
| Digər aktivlər | | (3,993,847) | (8,485) |
| Əməliyyat öhdəliklərində artımlar: | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | | - | 346,500 |
| Müddətli borc öhdəlikləri | | 17,401,550 | 17,304,763 |
| Müştəri hesabları | | (2,373,484) | 5,716,947 |
| Digər öhdəliklər | | (138,909) | 244,339 |
| Vergi tutulmalardan əvvəl daxil olan pul vəsaitləri: | | (7,070,230) | 5,135,134 |
| Ödənilmiş mənfəət vergisi | | (2,192) | (23,762) |
| Əməliyyat aktivlərindən gələn xalis gəlir | | (7,072,422) | 5,111,372 |
| **İNVESTİSİYA AKTİVLƏRİNDƏN PUL VƏSAİTİNİN HƏRƏKƏTİ** | | | |
| Bina və avadanlıqların alınması | 11 | (122,818) | (135,987) |
| Bina və avadanlıqların silinməsi/satılması | 11 | 1,333,000 | - |
| Qeyri-maddi aktivlərin alınması | 12 | (3,044) | (2,301) |
| İnvestisiya fəaliyyətlərindən gəlir əldə edilməsi | | 1,207,138 | (138,288) |
| **MALİYYƏ AKTİVLƏRİNDƏN PUL VƏSAİTİNİN HƏRƏKƏTİ** | | | |
| Nizamnamə kapitalının artırılması | 19 | 2,500,000 | - |
| Maliyyə aktivlərindən pul vəsaitinin hərəkəti | | 2,500,000 | - |
| XALİS KASSA ARTIMLARI VƏ KASSA EQVİVALENTLƏRİ | | (3,365,284) | 4,973,084 |
| **PUL VƏ PUL EQVİVALENTLƏRİ, ilin əvvəlinə** | 7 | **6,686,012** | **1,712,928** |
| **PUL VƏ PUL EQVİVALENTLƏRİ, illik yekun üzrə** | 7 | **3,320,728** | **6,686,012** |

**İdarə heyəti adından:**

| | |
|---|---|
| **İlqar Məlikov** | **Aygün Zamanova** |
| **İdarə Heyətinin Sədri Vəzifəsini İcra Edən** | **Baş Mühasib** |
| 12 may 2011 | 12 may 2011 |
| Bakı, Azəbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

## 1 Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2010-cu il tarixində tamamlanan il üçün Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq KredoBank Açıq Səhmdar Cəmiyyəti ("Bank") üçün tərtib edilmişdir.Bank Azərbaycan Respublikasında 1994-cü ildə Anar KB olaraq təsis edilmişdir və bu ölkədə fəaliyyət göstərir.2004-ci ildə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Anar KB-nın adı və mülkiyyəti dəyişdirilərək, KredoBank Acıq Səhmdar Cəmiyyətidir yaradılmışdır. Bank 29 dekabr 2006-cı il tarixli "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan əmanətlərin sığortalanması üzrə dövlət proqramında iştirak edir. Əmanətlərin Sığortalanması Fondu hər bir əmanət üzrə aşağıdakı qaydada 100% kompensasiya ödənilməsinə zəmanət verir:

- 1 yanvar 2010-cu ildən başlayaraq – 30,000 AZN-dən çox olmayaraq.
- 1 iyun 2010- cu ildən başlayaraq-12%-dən çox olmayaraq.

Müvafiq limitlərdən yuxarı olan məbləğlər sığortalanmır.

***Əsas fəaliyyət növləri.*** Bankın əsas fəaliyyəti Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslər üçün bank xidmətlərinin göstərilməsindən ibarətdir. Bank 1994-ci il tarixindən Azərbaycan Respublikası Mərkəzi Bankı ("ARMB") tərəfindən verilmiş 228 saylı bank lisenziyası əsasında fəaliyyət göstərir.

Bankın Azərbaycan Respublikasında 14 filialı vardır.

31 dekabr 2010-cu il üzrə aşağıdakı səhmdarlar Bankın adi səhmlərinə sahib olmuşlar:

| Səhmdarlar | 31 dekabr 2010 % | 31 dekabr 2009 % |
|---|---|---|
| Diplomat Plaza MMC | 8.04 | - |
| Aran firması | 8.04 | - |
| K.I. Vəkilov | 7.53 | 9.28 |
| M.I.Vəkilov | 7.59 | 9.28 |
| B.E. Vəkilova | 7.79 | 9.28 |
| N.C.Vəkilova | 7.79 | 9.35 |
| V.H.Vəkilova | 6.95 | 9.05 |
| I.T.Vəkilov | 7.59 | 9.28 |
| F.S.Budaqov | 7.66 | 9.05 |
| S.I.Budaqova | 7.79 | 9.13 |
| C.Y.Canbaxşıyev | 7.59 | 8.97 |
| S.M.Canbaxşıyeva | 7.79 | 9.05 |
| S.C.Məlikova | 7.85 | 8.28 |
| **Cəmi** | **100.00** | **100.00** |

***Bankın hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer.*** Bankın hüquqi ünvanı aşağıdakı kimidir:

S.Rəhimov,185
Bakı, AZ 1014
Azərbaycan Respublikası

***Əməliyyat valyutası.*** Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Manatı ilə ("AZN") əks olunmuşdur.

## 2 Bankın Əməliyyat Mühiti

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər, o cümlədən digər ölkələrdə sərbəst dönərli olmayan valyuta, xarici valyuta əməliyyatları üzrə ciddi nəzarət və nisbətən yüksək inflyasiya səviyyəsi və iqtisadi artım mövcuddur. Azərbaycanın bank sektoru ictimai fikirdəki mənfi dəyişikliklərə və iqtisadi şəraitə qarşı həssasdır.

## 2 Bankın Əməliyyat Mühiti (davamı)

Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri Hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və pul islahatlarının effektivliyindən, eləcə də vergi, hüquq, normativ və siyasi sistemin inkişafından xeyli dərəcədə asılıdır.

***Qlobal maliyyə bazarlarındakı son qeyri-sabitlik.*** 2007-ci ilin ortalarında başlamış qlobal likvidlik böhranı kapital bazarlarında maliyyələşdirmə səviyyəsinin aşağı düşməsinə, banklararası kredit dərəcələrinin mütəmadi olaraq artmasına səbəb olmuşdur. Bu isə müştərilərə verilmiş yeni kreditlər və avansların sayının əhəmiyyətli dərəcədə azalmasına və mümkün olduqda beynəlxalq təşkilatlar və digər yerli banklardan borc vəsaitlərinin alınması zamanı maliyyələşdirmə xərclərinin artmasına gətirib çıxarır. Qlobal maliyyə bazarlarında baş verən qeyri-müəyyənliklər bankların müflisləşməsinə, həmçinin Amerika Birləşmiş Ştatları, Qərbi Avropa ölkələri və Rusiyada bankların xilasına dair tədbirlərin görülməsi zərurətinə gətirib çıxarmışdır. Bu cür hallar Bankın yeni borc vəsaitləri əldə etməsi və daha erkən dövrlərdə həyata keçirilən əməliyyatlara tətbiq edilən şərtlər ilə mövcud borc vəsaitlərini yenidən maliyyələşdirməsi qabiliyyətinə təsir göstərə bilər. Bundan əlavə, Bankın debitorları likvidlik səviyyəsinin aşağı olmasından zərər çəkə bilər və bu da öz növbəsində onların öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir göstərə bilər. Debitorlar üçün qeyri-əlverişli əməliyyat şərtləri rəhbərliyin pul vəsaitlərinin hərəkəti üzrə proqnozlarına, eləcə də maliyyə və qeyri-maliyyə aktivləri üzrə dəyərsizləşmənin müəyyən edilməsinə də təsir göstərə bilər. Rəhbərlik, mövcud məlumatlara əsasən dəyərsizləşmənin qiymətləndirilməsi zamanı istifadə edilən gələcək pul vəsaitlərinin hərəkəti üzrə təxminlərin yenidən nəzərdən keçirilməsini lazımi şəkildə əks etdirmişdir.

## 3 Əsas Uçot Prinsiplərinin Xülasəsi

***Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri.*** Hazırkı maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olaraq tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır. Qeyd olunan maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot prinsipləri aşağıda göstərilir. Həmin uçot prinsipləri başqa hallar nəzərdə tutulmadıqda, bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir.

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.*** Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* müstəqil şəkildə fəaliyyət göstərən yaxşı məlumatlandırılmış müstəqil tərəflər arasında əməliyyatın ümumi şərtlər əsasında həyata keçirildiyi zaman aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləği təşkil edir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar Bank qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər. Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir.

**3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)**

Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar məlumatları ilə dəstəklənməyən fərziyyələrin istifadə olunmasını tələb edə bilər. Bu fərziyyələrin hər hansı birinin mümkün alternativ variantla əvəz edilməsi nəticəsində mənfəət, gəlir, aktiv və öhdəliklərin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olacaq hallar barədə məlumat hazırkı maliyyə hesabatlarında açıqlanır.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir.

Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

***Maliyyə alətlərinin ilkin uçotu***. Mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə göstərilən ticarət üçün qiymətli kağızlar, derivativlər və digər maliyyə alətləri əvvəlcə ədalətli dəyərdə qeydə alınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla ədalətli dəyərdə qeydə alınır. İlkin uçot zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin uçot zamanı yaranan gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("müntəzəm" alış və satışlar), Bankın maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda qeydə alınır.

İlkin uçotdan sonra maliyyə aktivləri və maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metoduna əsasən amortizasiya olunmuş maya dəyərində qiymətləndirilir.

***Maliyyə aktivlərinin uçotdan silinməsi.*** Bank aşağıdakı hallarda maliyyə aktivlərini uçotdan silir: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Bank maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda.

**3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)**

Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir. Overnayt depozitlər istisna olmaqla, bütün qısamüddətli banklararası yerləşdirmələr digər banklardan alınacaq vəsaitlərə daxil edilir. Məhdudlaşdırılmış məbləğlər pul vəsaitləri və onların ekvivalentlərindən çıxarılır. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş maya dəyərində əks etdirilir.

***ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar.*** ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar maya dəyərində qeydə alınmaqla, Bankın gündəlik əməliyyatlarını maliyyələşdirmək üçün nəzərdə tutulmayan məcburi ehtiyat depozitlərini əks etdirir və bu səbəbdən pul vəsaitlərinin hərəkəti hesabatının tərtib edilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir.

***Digər banklardan alınacaq vəsaitlər.*** Digər banklardan alınacaq vəsaitlər təsbit edilmiş və ya müəyyən edilə bilən tarixlərdə qaytarılmaq şərtilə Bank tərəfindən müxbir banklara avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Bu zaman, Bankın derivativ maliyyə alətləri ilə əlaqəsi olmayan və sərbəst surətdə alınıb satıla bilməyən debitor borcları üzrə alqı-satqı əməliyyatı aparmaq niyyəti olmur. Digər banklardan alınacaq vəsaitlər amortizasiya olunmuş maya dəyərində qiymətləndirilir.

***Müştərilərə verilmiş kreditlər və avanslar.*** Müştərilərə verilmiş kreditlər və avanslar təsbit edilmiş və ya müəyyən edilə bilən tarixlərdə qaytarılmaq şərtilə sərbəst surətdə alınıb satıla bilməyən qeyri-derivativ maliyyə alətləri ilə əlaqəsi olmayan debitor borclarının əldə edilməsi və ya yaradılması məqsədilə, Bank tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Bu zaman Bankın həmin debitor borcları üzrə alqı-satqı əməliyyatı aparmaq niyyəti olmur. Müştərilərə verilmiş kreditlər və avanslar amortizasiya olunmuş maya dəyərində qiymətləndirilir.

***Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Maliyyə aktivinin ilkin uçotundan sonra baş vermiş bir və ya bir neçə halın ("zərər halları") nəticəsində yaranmış və etibarlı şəkildə təxmin edilə bilən maliyyə aktivi və ya maliyyə aktivləri Bank üzrə gələcək pul vəsaitlərinin məbləğinə və ya vaxtına təsir göstərən dəyərsizləşmə üzrə zərərlər il üzrə mənfəət və zərərə aid edilir. Ayrıca qiymətləndirilən maliyyə aktivi (əhəmiyyətindən asılı olmayaraq) ilə əlaqədar dəyərsizləşmə üzrə zərərin baş verməsinə dair Bankda obyektiv dəlil olmadıqda, həmin aktiv analoji kredit riskinə malik olan maliyyə aktivləri Banka aid edilir və dəyərsizləşməyə görə birlikdə qiymətləndirilir. Maliyyə aktivinin dəyərsizləşməsi məsələsinə baxarkən Bankın nəzərə aldığı əsas amillər həmin aktivin vaxtı keçmiş statusu və hər hansı girov təminatının realizasiya oluna bilməsidir.

Dəyərsizləşmə üzrə zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən əsas meyarlar aşağıda göstərilir:

- hər hansı ödənişin gecikdirilməsi və bu zaman gecikdirilmiş ödənişin hesablaşma sistemlərindəki gecikmə ilə izah edilə bilməməsi;
- borcalanın əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun Bankın borcalan haqqında maliyyə məlumatları ilə təsdiqlənməsi;
- borcalanın müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi riskinə məruz qalması;
- borcalana təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi; və ya
- girovun dəyərinin bazar şərtlərinin pisləşməsi nəticəsində əhəmiyyətli dərəcədə aşağı düşməsi.

Aktivlər üçün dəyərsizləşmə üzrə zərərlərin kollektiv şəkildə qiymətləndirilməsi məqsədilə maliyyə aktivləri analoji kredit risk xüsusiyyətlərinə əsasən qeydə alınır. Həmin xüsusiyyətlər qiymətləndirilən aktivlərin müqavilə üzrə şərtlərinə uyğun olaraq borcalanlar tərəfindən bütün məbləğlərin ödənilməsi qabiliyyətinin göstəricisi olmaqla, bu cür aktivlər Bank üzrə gələcək pul vəsaitləri hərəkətinin təxmin edilməsi üçün uyğundur.

**3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)**

Dəyərsizləşməyə qarşı məcmu şəkildə qiymətləndirilən maliyyə aktivləri bankdakı pul vəsaitlərinin gələcək hərəkəti, həmin aktivlərlə bağlı müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, keçmişdə baş vermiş zərər halları nəticəsində yaranacaq vaxtı keçmiş borcların həcminə dair rəhbərlikdə mövcud olan statistikaya və vaxtı keçmiş borcların geri qaytarılması nailiyyətinə əsasən müəyyən edilir.

Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş hadisələrin təsirini aradan qaldırmaq məqsədilə, keçmiş illərin statistikası müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənir.

Amortizasiya olunmuş maya dəyərində uçota alınan dəyərsizləşmiş maliyyə aktivi ilə bağlı şərtlərə yenidən baxılarsa və ya bu şərtlər borcalanın və yaxud borcverənin maliyyə vəziyyətindəki çətinliklərə görə dəyişərsə, dəyərsizləşmənin uçotu şərtlərin dəyişməsindən əvvəlki effektiv faiz dərəcəsinə əsaslanır.

Aktivin balans dəyərini effektiv faiz dərəcəsilə diskont edilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinə (kreditlər üzrə baş verməmiş gələcək zərərlər istisna olmaqla) silmək üçün aktivlər üçün dəyərsizləşmə üzrə zərərlər ehtiyat hesabında qeydə alınır. Girov qoyulmuş maliyyə aktivi üzrə təxmin edilən gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinin hesablanması girovun əldə edilməsi və satılması xərcləri çıxılmaqla, girov nəticəsində yarana bilən (girovun olub-olmaması ehtimal edildikdə) pul vəsaitlərinin hərəkətini əks etdirir.

Dəyərsizləşmə üzrə zərərin məbləği sonrakı dövrdə baş vermiş hadisəyə görə azalarsa və həmin azalma obyektiv olaraq zərərin qeydə alınmasından sonra baş vermiş hadisəyə (məsələn, borcalanın kredit reytinqinin artması kimi) aid edilərsə, əvvəl qeydə alınmış dəyərsizləşmə üzrə zərər il üzrə mənfəət və zərər hesabına yaradılmış ehtiyata düzəliş etməklə bərpa edilir.

Aktivlər qaytarıla bilmədikdə onlar, aktivin və ya onun hissəsinin bərpa olunması üçün bütün zəruri prosedurların tamamlanmasından və zərərin məbləğinin müəyyən edilməsindən sonra müvafiq zərər ehtiyatından silinir

***Kreditlərlə bağlı digər öhdəliklər.*** Bank akkreditivlər və maliyyə zəmanətləri daxil olmaqla, kreditlərlə bağlı öhdəlikləri öz üzərinə götürür. Maliyyə zəmanətləri müştərinin üçüncü şəxslər qarşısında öz öhdəliklərini yerinə yetirə bilmədiyi və kreditlər kimi eyni kredit riskinə məruz qaldığı halda, ödənişlərin aparılması üzrə dəyişilməz öhdəlikləri əks etdirir. Kreditlərin verilməsi üzrə maliyyə zəmanətləri və öhdəlikləri əvvəlcə qaydaya görə əldə edilmiş komissiya gəlirləri ilə təsdiqlənən ədalətli dəyərlə qeydə alınır. Həmin məbləğ öhdəliyin qüvvədə olduğu müddət ərzində düz xətt metodu ilə amortizasiya edilir. Bu metod Bankın xüsusi kredit müqaviləsi imzalayacağı və onu qısa müddətdə satmayacağı ehtimal edildikdə tətbiq edilmir; bu cür kreditlərin verilməsi öhdəlikləri üzrə komissiya gəlirləri təxirə salınmaqla, kreditin ilkin uçotu zamanı onun balans dəyərinə daxil edilir. Hər bir hesabat dövrünün sonunda öhdəliklər (i) ilkin uçot zamanı amortizasiya olunmamış məbləğin qalığı və (ii) hər bir hesabat dövrünün sonunda öhdəliyin yerinə yetirilməsi üçün tələb olunan xərclər üzrə ən yaxşı təxminlərdən daha yüksək olanı ilə ölçülür.

**Satıla bilən investisiya qiymətli kağızları.** Bu kateqoriyaya Bankın qeyri-müəyyən müddət ərzində saxlamaq niyyəti olan və likvidliyin saxlanması üzrə tələblərdən asılı olaraq və ya faiz dərəcələri, valyuta məzənnələri və ya səhmlərin qiymətinin dəyişməsi nəticəsində satıla bilən investisiya qiymətli kağızları daxildir. Bank investisiyaları onların alındığı tarixdə satıla bilən investisiya qiymətli kağızları kimi təsnifləşdirir.

Satıla bilən investisiya qiymətli kağızları ədalətli dəyərdə qeydə alınır. Satıla bilən borc qiymətli kağızları üzrə faiz gəlirləri effektiv faiz metodu ilə hesablanır və il üzrə mənfəət və zərərdə qeydə alınır. Satıla bilən pay alətləri üzrə dividendlər, Bankın ödənişləri əldə etmək hüququ müəyyən edildikdə və dividendlərin əldə edilməsi ehtimalı yarandıqda il üzrə mənfəət və zərərdə əks etdirilir. Ədalətli dəyərdəki dəyişikliklərin bütün digər elementləri investisiyanın uçotdan silinməsi və ya dəyərsizləşməsi anınadək digər məcmu gəlirlərdə əks etdirilir. Bu zaman yaranan gəlir və ya zərər digər məcmu gəlirlər kateqoriyasından il üzrə mənfəət və zərərə köçürülür.

Dəyərsizləşmə üzrə zərərlər satıla bilən investisiya qiymətli kağızlarının ilkin uçotundan sonra baş vermiş bir və ya bir neçə halın (“zərər halları”) nəticəsində yarandıqda il üzrə mənfəət və zərərdə əks etdirilir. Pay qiymətli kağızların ədalətli dəyərinin onun alış dəyərindən əhəmiyyətli dərəcədə və ya davamlı şəkildə aşağı olması həmin qiymətli kağızların dəyərsizləşməsini göstərir. Alış dəyəri ilə cari ədalətli dəyər arasında fərq kimi

**3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)**

müəyyən edilən dəyərsizləşmə üzrə yığılmış zərər, ilkin olaraq mənfəət və zərərdə əks etdirilən həmin aktivin dəyərsizləşməsi üzrə zərəri çıxmaqla, digər məcmu gəlirlər kateqoriyasından il üzrə mənfəət və zərərə köçürülür. Pay alətlərinin dəyərsizləşməsi üzrə zərər bərpa edilmir və sonrakı gəlirlər digər məcmu gəlirlər kimi qeydə alınır. Satıla bilən qiymətli kağızlar kimi təsnifləşdirilmiş borc alətlərinin ədalətli dəyəri hesabat tarixindən sonrakı dövr ərzində artarsa və həmin artım obyektiv olaraq dəyərsizləşmə üzrə zərərin mənfəət və zərər kimi uçota alınmasından sonra baş vermiş hadisəyə aid edilə bilərsə, dəyərsizləşmə üzrə zərər il üzrə mənfəət və zərər hesabına bərpa edilir.

***Binalar və avadanlıqlar.*** Binalar, yığılmış amortizasiyanı və lazım olduqda dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə və ya aşağıda göstərildiyi kimi yenidən qiymətləndirilmiş dəyərdə qeydə alınır.

Binalar və avadanlıqların bütün digər növləri yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə zərəri çıxmaqla (əgər varsa), ilkin dəyərdə qeydə alınır.

Kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Binalar və avadanlıqların əsas komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Binalar və avadanlıqlar dəyərsizləşdikdə, onlar binalar və avadanlıqların istifadəsi nəticəsində əldə edilən dəyər ilə satış xərcləri çıxılmaqla ədalətli dəyərdən daha yüksək olan dəyərə silinir. Aktivin balans dəyərindəki azalma dəyərsizləşmə məbləğinin kapitalda göstərilən əvvəlki ilin yenidən qiymətləndirmə ehtiyatından artıq olan həcmdə mənfəət və zərərə aid edilir. Aktivin istifadəsi nəticəsində əldə edilən dəyərin və ya satış xərcləri çıxılmaqla, onun ədalətli dəyərinin müəyyən edilməsi üçün istifadə edilən təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə əvvəlki dövrlərdə hər hansı aktiv üçün qeydə alınmış dəyərsizləşmə üzrə zərərlər bərpa edilir.

Satışdan yaranan gəlir və zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və zərərdə əks etdirilir.

***Amortizasiya.*** Əsas vəsaitlər üzrə amortizasiya düz xətt metoduna əsasən, yəni əsas vəsaitlərin aşağıda göstərilən təxmini faydalı xidmət müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə aktivlərin ilkin dəyərini qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | |
|---|---|
| Binalar | 2%; |
| Kompüter və rabitə avadanlıqları | 25%; |
| Mebel, qurğular və sair | 25%; |
| Nəqliyyat vasitələri | 25%; |
| Digər əsas vəsaitlər | 20%; |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Bankın həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Bank aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyərləri və faydalı xidmət müddətləri lazım olduqda hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və dəqiqləşdirilir.

***Qeyri-maddi aktivlər.*** Bankın qeyri-maddi aktivləri müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir.

Əldə edilmiş proqram təminatı lisenziyaları həmin proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Bank tərəfindən nəzarət olunan identifikasiya edilə bilən unikal proqram təminatı ilə birbaşa əlaqəli olan tərtibat xərcləri, çəkilmiş xərclərdən artıq olan əlavə iqtisadi səmərə gətirəcəyi halda qeyri-maddi aktivlər kimi tanınır. Kapitallaşdırılmış xərclərə proqram təminatını tərtib edən işçilərə sərf olunan xərclər və ümumi təsərrüfat xərclərinin müvafiq hissəsi daxildir. Proqram təminatı ilə əlaqədar bütün digər xərclər (məs, texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı təxmin edilən faydalı xidmət müddəti (10 il) ərzində düz xətt metoduna əsasən amortizasiya olunur.

***Digər banklara ödəniləcək vəsaitlər.*** Digər banklara ödəniləcək vəsaitlər, müxbir banklar tərəfindən Banka nağd pul və ya digər aktivlər verildiyi andan qeydə alınır. Qeyri-derivativ maliyyə öhdəlikləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

**3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)**

Bank verdiyi borcları geri aldıqda, həmin borc öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq borcun ödənilməsi üzrə yaranan gəlir və ya xərclərə daxil edilir.

***Müştəri hesabları.*** Müştəri hesabları fiziki şəxslər, dövlət müəssisələri və ya hüquqi şəxslər qarşısındakı qeyri-derivativ maliyyə öhdəliklərini əks etdirir və amortizasiya olunmuş dəyərdə qeydə alınır.

***Müddətli borc öhdəlikləri.*** Müddətli borc öhdəliklərinə rezident və qeyri-rezident bankların və maliyyə institutları tərəfindən sabit ödəmə müddəti və sabit və ya dəyişkən faiz dərəcələri ilə verilmiş kreditlər və depozitlər daxildir. Müddətli borc öhdəlikləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Mənfəət vergisi.*** Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında Azərbaycan Respublikasının qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş qanunvericiliyinə uyğun olaraq göstərilmişdir. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri bilavasitə digər məcmu gəlirlərdə və ya kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, mənfəət və zərərdə qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları, qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır. Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərəri o zaman hesablanır ki, bu çıxılmaların realizasiya oluna bilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb ediləcək mənfəətin mövcudluğu ehtimal edilsin.

***Gəlir və xərclərin uçotu.*** Bütün borc alətləri üzrə faiz gəlirləri və xərcləri effektiv faiz metodundan istifadə etməklə hesablama metodu ilə qeydə alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, əməliyyat xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar əldə edilmiş və ya ödənilmiş komissiya haqları daxildir. Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Bank tərəfindən əldə edilmiş komissiya haqları, Bankın xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Bank, kreditlərin verilməsi üzrə öhdəlikləri mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə qeydə alınan maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

Kreditlərin və digər borc alətlərinin vaxtında qaytarılması ilə bağlı şübhə yarandıqda, onlar dəyərsizləşmə məbləğinin müəyyən edilməsi məqsədilə gələcək pul vəsaitləri hərəkətinin diskontlaşdırılması üçün istifadə edilən effektiv faiz dərəcəsi əsasında faiz gəlirlərini əks etdirməklə bərpa dəyərinə qədər azaldılır.

Bütün digər komissiya gəlirləri, digər gəlirlər və digər xərclər adətən göstərilməli olan ümumi xidmətlərdə faktiki göstərilmiş xidmətlərin payı kimi müəyyən edilmiş konkret əqdin tamamlanma dərəcəsindən asılı olaraq hesablama metodu ilə qeydə alınır.

**3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)**

***Xarici valyutanın yenidən qiymətləndirilməsi.*** Bankın müəssisələrinin funksional valyutası həmin müəssisələrin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Bankın bütün müəssisələrinin

funksional valyutası və Bankın hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Monetar aktiv və öhdəliklər, ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir. Xarici valyuta ilə əməliyyatların həyata keçirilməsi

və ilin sonuna ARMB-nin rəsmi valyuta məzənnəsi ilə xarici valyutada ifadə olunan monetar aktiv və öhdəliklərin hər bir müəssisənin funksional valyutasına çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərərə aid edilir. İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızlarının ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi əks etdirilir.

31 dekabr 2010-cu il tarixinə qüvvədə olan valyuta məzənnələri:

1 ABŞ Dolları = 0.7979 AZN (31 dekabr 2009: 1 ABŞ Dolları = 0.8031 AZN)

1 Avro = 1.056 AZN (31 dekabr 2009: 1 AVRO = 1.1499 AZN).

1RUS RUBLU= 0.0263 AZN (31 dekabr 2009: 1 RUB = 0.0266 AZN).

1 FUNT STERLİNQ= 1.2377 AZN (31 dekabr 2009: 1 GPB = 1.2759 AZN).

***Əvəzləşdirmə.*** Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər.

***İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar.*** Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar Bankın işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

***Seqmentlər üzrə hesabat.*** Seqment, məhsulların təqdim edilməsi və ya xidmətlərin göstərilməsi (biznes seqmenti), yaxud konkret iqtisadi mühitdə məhsulların təqdim edilməsi və ya xidmətlərin göstərilməsi (coğrafi seqment) ilə bağlı olan, riskləri və səmərəsi digər seqmentlərdən fərqlənən Bankın identifikasiya edilə bilən komponentidir. Gəlirlərinin böyük hissəsi kənar müştərilərə satışlar hesabına yaranan və gəlirləri, maliyyə nəticəsi və ya aktivləri bütün seqmentlərin ümumi aktivlərinin on faizini və ya artıq hissəsini təşkil edən seqmentlər ayrıca şəkildə açıqlanır.

***Maliyyə hesabatlarının təqdimatında dəyişikliklər.*** Lazım olduqda cari dövrün maliyyə hesabatlarındakı dəyişiklikləri əks etdirmək məqsədilə keçən ilin müqayisəli rəqəmləri müvafiq şəkildə düzəldilmişdir.

1 yanvar 2009-cu il tarixindən qüvvəyə minmiş yenidən işlənmiş BMS 1 *"Maliyyə Hesabatlarının Təqdimatı"* standartı müəssisənin uçot siyasətini retrospektiv qaydada tətbiq etdiyi və ya maliyyə hesabatlarındakı maddələri retrospektiv şəkildə düzəltdiyi və ya yenidən təsnifləşdirdiyi hallarda müəssisələr tərəfindən maliyyə vəziyyəti haqqında hesabatın (maliyyə vəziyyəti haqqında ilkin hesabat) müqayisəli məlumatların hazırlandığı ən erkən dövrün başlanğıcına da təqdim edilməsini tələb edir.
Rəhbərlik bu tələbi yenidən işlənmiş 1 saylı BMS-in tətbiqi və hazırkı Qeyddə yenidən təsnifləşdirmənin təqdim edilməsi kontekstində nəzərə almışdır. Rəhbərlik, aparılmış yenidən təsnifləşdirmənin hazırkı maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir etmədiyini nəzərə alaraq, Bank tərəfindən maliyyə hesabatlarında 1 yanvar 2008-ci il tarixinə ilkin balansın və ya əlavə açıqlamaların təqdim edilməsini zəruri hesab etmir. Həmin açıqlamaların maliyyə hesabatlarında əks etdirilməməsi faktı rəhbərliyin fikrincə əhəmiyyətli deyil.

## 3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Maliyyə hesabatlarına edilmiş yenidən təsnifləşdirmələrin təsiri aşağıdakı cədvəldə göstərilir:

| 31.12.2009-cu il tarixinə BMHS-ə uyğun qalıqlar | 31.12.2010-cu il tarixinə BMHS-ə uyğun müqayisəli rəqəmlər | Yenidən təsnifləşdirmə üçün səbəb |
|---|---|---|
| Müddətli Borc öhdəlikləri – AZN 0 | Müddətli Borc öhdəlikləri – AZN 26,588,006 | Digər müddətli borc öhdəlikləri "Digər banklara ödəniləcək vəsaitlər" sətrindən yenidən təsnifləşdirilmişdir. |
| Digər banklardan alınacaq vəsaitlər – AZN 26,989,556 | Digər banklardan alınacaq vəsaitlər – AZN 401,550 | Digər müxbir banklardakı müddətli borc öhdəlikləri "Müddətli borc öhdəlikləri" sətrinə yenidən təsnifləşdirilmişdir. |

## 4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr

Bank, növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

***Kreditlər və avansların dəyərsizləşməsi üzrə zərər.*** Bank müntəzəm olaraq kredit portfelləri üzrə dəyərsizləşmənin mövcudluğunu müəyyən etmək üçün onu təhlil edir. Dəyərsizləşmə üzrə zərərin məcmu gəlirlər haqqında hesabatda əks etdirilməsini müəyyən edərkən, Bank kredit portfelində konkret bir kreditin dəyərində azalmanın müşahidə edilməsindən əvvəl kredit portfeli üzrə pul vəsaitlərinin təxmin edilən hərəkətində ölçülə bilən azalmanı əks etdirən nəzərə çarpan əlamətlərin mövcudluğunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür. Bu göstəricilərə, Bankdakı borcalanların ödəniş statusunda və ya Bankdakı aktivlər üzrə öhdəliklərin yerinə yetirilməməsi ilə əlaqədar ölkə səviyyəsində və ya yerli iqtisadi şərtlərdə mənfi dəyişikliyin olduğunu əks etdirən müşahidə edilə bilən məlumatlar daxildir. Rəhbərlik gələcək pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması üçün istifadə edilən kredit portfelindəki aktivlər ilə analoji kredit riskinə və dəyərsizləşmə üzrə obyektiv əlamətlərə malik aktivlər ilə əlaqədar əvvəlki ilin zərərləri haqqında məlumata əsaslanan təxminlər tətbiq edir. Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

***Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu.*** Bank öz fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 39 saylı BMS-ə uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin, həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir. Əlaqəli tərəflərlə əməliyyatların şərtləri haqqında məlumat 33 saylı Qeyddə açıqlanır.

***Müştərilərə verilmiş kreditlər və avanslar.*** Bank Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan və Azərbaycan Respublikası İpoteka Fondundan bənzər təşkilatların inkişaf etməkdə olan bazarlarda təqdim etdiyi vəsaitlərin faiz dərəcələri ilə eyni olan və Bankın digər borcalanlardan ala biləcəyi borc vəsaitləri üzrə faiz dərəcələrindən aşağı ola bilən faiz dərəcələri ilə uzunmüddətli borc vəsaiti alır. Bank bu cür vəsaitlər hesabına ayrı-ayrı müştərilərə güzəştli dərəcələr ilə kreditlər vermək imkanında olmuşdur. Bankın siyasəti BMS 39, *Maliyyə Alətləri: Tanınması və Qiymətləndirilməsi* Standartına uyğun olaraq maliyyə alətlərini əvvəlcə onların ədalətli dəyərinə əsasən uçota almaqdır. Bu səbəbdən Rəhbərlik bu cür maliyyə alətlərinin ilkin uçotu zamanı yarana biləcək ədalətli dəyər üzrə gəlir və ya zərərləri nəzərə almışdır. Həmin əməliyyatlar əlaqəli tərəflərlə aparılmadığına görə, rəhbərlik həmin vəsaitlərin və müvafiq kreditlərin bazar faiz dərəcələrinə uyğun olduğunu və ilkin uçot zamanı gəlir və ya zərərin yaranmadığını hesab edir.

Rəhbərlik Azərbaycan İpoteka Fondu, Sahibkarlığa Kömək Milli Fondu , Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı kreditləri üzrə döblət agentliyi ilə bağlanmış müqavilənin xarakterini və xüsusilə Bankın həmin Fondun agenti və ya bu proqram çərçivəsində borcalanlarla prinsipal qismində çıxış etdiyini nəzərdən keçirmişdir. Bu proqram çərçivəsində verilmiş kreditlərlə bağlı riskləri və faydaları nəzərdən keçirdikdən sonra, rəhbərlik Bankın prinsipal qismində çıxış etdiyi qənaətinə gəlmişdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarındakı uçot bu mühakiməyə əsaslanır.

**4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr (davamı)**

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır

***Fasiləsiz fəaliyyət prinsipi.*** Rəhbərlik hazırkı maliyyə hesabatlarını fasiləsiz fəaliyyət prinsipinə əsasən hazırlamışdır. Belə bir mülahizə irəli sürərkən rəhbərlik mövcud planları, əməliyyatların maliyyə nəticələrini və maliyyə resurslarından istifadəni nəzərə almışdır.

**5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tətbiqi**

1 yanvar 2009-cu il tarixindən bəzi yeni standartlar və onlara dair şərhlər Bank üçün məcburi xarakter daşıyır:

***BMHS 8, Əməliyyat Seqmentləri.*** Bu Standart borc və ya pay alətləri açıq bazarda alınıb-satılan təşkilatlara, eləcə də açıq bazarda hər hansı növ alətlərin yerləşdirilməsi ilə əlaqədar maliyyə hesabatlarını tənzimləyici orqanlara təqdim edən və ya təqdim etməyi planlaşdıran müəssisələrə tətbiq edilir. BMHS 8, müəssisələrin öz əməliyyat seqmentləri haqqında maliyyə və təsviri məlumatları açıqlamasını tələb edir. Bu halda seqment üzrə məlumatlar daxili hesabatların hazırlanması zamanı istifadə olunan eyni prinsip ilə təqdim edilməlidir. BMHS 8-in tətbiqi hazırkı maliyyə hesabatlarında təqdim edilən hesabat seqmentlərinin artması ilə nəticələnmişdir.

***BMS 23, Borc Vəsaitləri üzrə Xərclər, 2007-ci ilin mart ayında yenidən işlənmişdir.*** Bu Standarta edilmiş əsas dəyişiklik istifadəsi və ya satışı kifayət qədər uzun müddət tələb edən aktivlərə aid olan borc vəsaitləri üzrə xərclərin dərhal xərcə silinməsi üsulunun ləğv edilməsidir. Ədalətli dəyərdə uçota alınmayan və nəzərdə tutulan istifadə və ya satışı üçün hazırlanması kifayət qədər vaxt tələb edən aktivin (şərtlərə cavab verən aktiv) əldə edilməsi, inşası və ya istehsalı ilə birbaşa əlaqəli olan borc vəsaitləri üzrə xərclər, kapitallaşdırmaya başlanma tarixi 1 yanvar 2010-cu il və ya bu tarixdən sonra olarsa, həmin aktivin dəyərini təşkil edir. Borc vəsaitləri üzrə digər xərclər effektiv faiz metodundan istifadə etməklə xərcə silinir.

***BMS 1, Maliyyə Hesabatlarının Təqdimatı, 2007-ci ilin sentyabr ayında yenidən işlənmişdir.*** BMS 1 üzrə əsas dəyişiklik mənfəət və zərər hesabatının məcmu gəlirlər haqqında hesabat ilə əvəz edilməsidir. Bu hesabata həmçinin səhmdar kapitalında qeyri-sahibkarların iştirak paylarındakı bütün dəyişikliklər (məs, satıla bilən maliyyə aktivlərinin yenidən qiymətləndirilməsi) daxildir. Alternativ olaraq, müəssisələr iki hesabat təqdim edə biləcəklər: ayrıca mənfəət və zərər hesabatı və məcmu gəlirlər haqqında hesabat. Bank yalnız məcmu gəlirlər haqqında hesabatı təqdim etməyi seçmişdir. Yenidən işlənmiş BMS 1 həmçinin yenidən təsnifləşdirmə, uçot siyasətindəki dəyişikliklər və ya səhvlərin düzəldilməsi ilə bağlı hər dəfə müəssisənin müqayisəli məlumatları

yeniləşdirərək maliyyə vəziyyəti haqqında hesabatın (balans hesabatı) müqayisəli məlumatların hazırlandığı ən erkən dövrün başlanğıcında tərtib edilməsi tələbini nəzərdə tutur. Yenidən işlənmiş BMS 1 Bankın maliyyə hesabatlarının təqdimatına təsir göstərmiş, lakin ayrıca əməliyyatların və ya qalıqların tanınması və ya ölçülməsinə heç bir təsir göstərməmişdir.

***Beynəlxalq Maliyyə Hesabatı Standartlarının təkmilləşdirilməsi*** (2009-cu ilin may ayında dərc edilmişdir). 2009-cu ildə Beynəlxalq Mühasibat Standartları Şurası (BMSŞ) BMHS-ə lazımi, lakin təcili olmayan dəyişikliklərin aparılması məqsədilə illik təkmilləşdirmə layihəsinin həyata keçirilməsinə dair qərar qəbul etmişdir. Dəyişikliklər müxtəlif standartlara edilmiş əsaslı dəyişikliklər, açıqlamalar və terminoloji düzəlişlərdən ibarətdir. Həmin əsaslı dəyişikliklər aşağıdakı sahələrdə aparılmışdır: törəmə müəssisə üzərində nəzarətin itirildiyi halda BMHS 5-ə əsasən onun satış üçün nəzərdə tutulan kimi təsnifləşdirilməsi (Bank tərəfindən əvvəllər 2010-cu ildə qəbul edilmişdir); BMS 1-ə əsasən alqı-satqı üçün nəzərdə tutulan maliyyə alətlərinin uzunmüddətli aktivlər kimi təqdim edilməsi; BMS 16-a uyğun olaraq əvvəllər icarə üçün nəzərdə tutulan aktivlərin satışının uçotu və BMS 7-ə əsasən müvafiq pul vəsaitləri hərəkətinin əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını kimi təsnifləşdirilməsi; BMS 19-a əsasən sekvestr anlayışının aydınlaşdırılması; BMS 20-ə uyğun olaraq bazar faiz dərəcələrindən aşağı faiz dərəcələrilə verilmiş dövlət subsidiyalarının uçotu; BMS 23-ə əsasən borc vəsaitləri üzrə xərclər anlayışının effektiv faiz metoduna uyğun olaraq verilməsi; BMS 27 və BMHS 5-ə əsasən satış üçün nəzərdə tutulan törəmə müəssisələr üzrə uçotun aydınlaşdırılması; BMS 28 və BMS 31-ə uyğun olaraq assosiasiya olunmuş və birgə müəssisələrlə bağlı məlumatların açıqlanması tələblərində azalma; BMS 36-a uyğun olaraq açıqlamaların genişləndirilməsi; BMS 38-ə uyğun olaraq reklam xərcləri üzrə uçotun aydınlaşdırılması; "mənfəət və zərər hesabında ədalətli dəyərdə" kateqoriyası anlayışının BMS 39-a əsasən hecinq uçotu ilə uyğunluğu təmin etmək üçün dəyişdirilməsi; BMS 40-a uyğun olaraq tikintisi başa çatdırılmamış investisiya mülkiyyəti üzrə uçotun aparılması; və BMS 41-ə uyğun olaraq bioloji aktivlərin ədalətli dəyərinin müəyyən edilməsi qaydalarındakı məhdudiyyətlərin azaldılması. BMS 8, 10, 18, 20, 29, 34, 40, 41 və BMHS 7-ə edilmiş digər dəyişikliklər yalnız terminoloji xarakter daşıyır və redaktə ilə bağlı dəyişiklikləri əks etdirir və BMSŞ-nin fikrincə bu dəyişikliklərin mühasibat uçotuna heç bir təsiri yoxdur və ya minimal təsir göstərir. Bu dəyişikliklər Bankın maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməmişdir.

## 5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tətbiqi (davamı)

***Vaxtından əvvəl ödənilmək hüququna malik olan maliyyə alətləri və ləğvetmə zamanı yaranan öhdəliklər – BMS 32 və BMS 1 Standartlarına Dəyişiklik.*** Bu dəyişiklik maliyyə öhdəliyi anlayışına cavab verən bəzi

maliyyə alətlərinin kapital kimi təsnifləşdirilməsini tələb edir. Bu dəyişiklik hazırkı maliyyə hesabatlarına hər hansı təsir göstərməmişdir.

***Hüquqların verilməsi və ləğv edilməsi şərtləri – BMHS 2 Standartına Dəyişiklik, Səhm əsasında ödənişlər.*** Bu dəyişiklikdə yalnız xidmət şərtlərinin və icra şərtlərinin hüquqların verilməsi və ləğv edilməsi şərtləri olması müəyyən edilir. Səhm əsasında ödənişlərin digər xüsusiyyətləri hüquqların verilməsi və ləğv edilməsi şərtlərinə aid deyil. Bu dəyişiklik müəssisənin və ya digər tərəflərin ləğv edilməsinin eyni uçot qaydası ilə aparılmasını müəyyənləşdirir. Bu dəyişiklik hazırkı maliyyə hesabatlarına hər hansı təsir göstərməmişdir.

***BMHŞK 13, Müştəri loyallıq proqramları.*** BMHŞK 13-də mal və xidmətlərin müştəri loyallıq proqramları əsasında satılması müəyyənləşdirilir (məsələn: loyallıq xalları və ya təmənnasız məhsullar), bu çox elementli bir razılaşmadır və müştəridən alınacaq məbləğlər ədalətli dəyərdən istifadə etməklə razılaşmanın komponentləri arasında bölüşdürülür. Bu dəyişiklik hazırkı maliyyə hesabatlarına hər hansı təsir göstərməmişdir. Bank hər hansı loyallıq proqramlarından istifadə etmir.

***BMHŞK 15, Daşınmaz əmlakın tikintisi üzrə müqavilələr.*** Bu şərh birbaşa və ya subpodratçılar vasitəsilə daşınmaz əmlakın tikintisi ilə məşğul olan müəssisələrin gəlirləri və əlaqəli xərclərinin uçota alınmasına tətbiq edilir və daşınmaz əmlakın tikintisi üzrə müqavilələrin BMS 11 və ya BMS 18-ə uyğun olub-olmadığının müəyyən edilməsinə dair təlimat verir. BMHŞK 15 həmçinin, müəssisələr tərəfindən bu cür əməliyyatlar üzrə gəlirlərin nə vaxt uçota alınmasını müəyyən edən meyarları əks etdirir. Bu dəyişiklik hazırkı maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməmişdir.

***Törəmə, birgə və ya assosiasiya olunmuş müəssisələrdəki investisiyaların maya dəyəri – BMHS 1 və BMS 27 Standartına Dəyişiklik*** (2009-cu ilin may ayında dərc edilmişdir). Bu dəyişiklik BMHS-i ilk dəfə qəbul edən müəssisələrə törəmə, birgə və ya assosiasiya olunmuş müəssisələrdəki investisiyaları ayrıca maliyyə hesabatlarında ədalətli dəyərlə yaxud əvvəlki uçot qaydalarına uyğun olaraq balans dəyəri ilə qiymətləndirmək imkanı verir. Bu dəyişiklik həmçinin, investisiya obyektlərindəki xalis aktivlərin alışdan əvvəlki gəlirlərini investisiyanın bərpa edilməsi kimi deyil, il üzrə mənfəət və zərərə aid edilməsini tələb edir. Bu dəyişiklik hazırkı maliyyə hesabatlarına hər hansı təsir göstərməmişdir.

***Maliyyə alətləri haqqında məlumat açıqlamalarının təkmilləşdirilməsi – BMHS 7, Maliyyə alətləri: məlumatların açıqlanması Standartına Dəyişiklik*** (2010-cu ilin mart ayında dərc edilmişdir). Bu dəyişiklik ədalətli dəyərlə qiymətləndirmələr və likvidlik riski ilə bağlı məlumat açıqlamalarının genişlənməsini tələb edir. Müəssisələr üç mərhələli ədalətli dəyərlə qiymətləndirmə prinsipindən istifadə etməklə, maliyyə alətlərini təhlil etməlidirlər. Bu dəyişiklik (a) öhdəliklərin ödəmə müddətlərinə görə təhlili cədvəlində maliyyə zəmanətinin tələb edilə bildiyi ən qısa müddətdə həmin zəmanətin maksimal məbləğinin əks etdirilməsini; və (b) müqavilə üzrə ödəmə müddətləri pul vəsaitləri hərəkətinin müddəti ilə bağlı məlumatın əldə edilməsi üçün əhəmiyyət daşıdıqda, maliyyə derivativlərinin müqavilə üzrə qalan ödəmə müddətləri haqqında məlumatın açıqlanmasını izah edir. Bundan əlavə, müəssisə likvidlik riskinin idarə edilməsi üçün malik olduğu maliyyə aktivlərinin ödəmə müddətlərinə görə təhlili üzrə məlumatları açıqlamalıdır (bu məlumat likvidlik riskinin xarakterini və həcmini müəyyən etmək üçün maliyyə hesabatlarının istifadəçilərinə lazım olduqda). Hazırkı maliyyə hesabatlarında müvafiq əlavə məlumatlar açıqlanmışdır.

***Əlavə elementli derivativlər - BMHŞK 9 və BMS 39 Standartına Dəyişiklik, 2010-cu ilin mart ayında dərc edilmişdir.*** Bu dəyişikliklərdə maliyyə aktivinin "mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə göstərilən maliyyə aktivləri" kateqoriyasından çıxarılması zamanı bütün əlavə elementli derivativlərin qiymətləndirilməsi və lazım olduqda ayrıca uçota alınması aydın şəkildə göstərilir. Bu dəyişiklik hazırkı maliyyə hesabatlarına hər hansı təsir göstərməmişdir.

## 5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tətbiqi (davamı)

***BMHŞK 16, Xarici müəssisələrdəki xalis investisiyaların hecinqi.*** Bu şərhdə hansı valyuta riskləri üzrə hecinq uçotunun aparılması uyğun olduğu izah edilir və qeyd olunur ki, funksional valyutadan təqdimat valyutasına köçürmə hecinq uçotunun tətbiq edilə biləcəyi riski yaratmır. BMHŞK 16, hecinq alətinin Bankın müəssisəsi və ya müəssisələri tərəfindən saxlanılmasına icazə verir (hecinq olunan xarici müəssisənin özü istisna olmaqla). Bu şərhdə həmçinin hecləşdirilən xarici müəssisənin silinməsi zamanı digər məcmu gəlirlərdən mənfəət və zərərə köçürülən gəlir və ya zərərin hesablanma qaydası açıqlanır. Hesabat hazırlayan müəssisələr tətbiq etdikləri hecinqin BMHŞK 16-da qeyd olunmuş hecinq uçotu meyarlarına cavab vermədiyi təqdirdə, bu hecləri

prospektiv qaydada BMS 39-a uyğun olaraq hecinq uçotunu dayandırmaq prinsipini tətbiq edirlər. BMHŞK 16 hazırkı maliyyə hesabatlarına hər hansı təsir göstərməmişdir.

***Kiçik və Orta Həcmli Müəssisələr üçün Beynəlxalq Maliyyə Hesabatı Standartları (2010-cu ilin iyul ayında dərc edilmişdir) kiçik həcmli müəssisələrin ehtiyac və imkanlarını təmin etmək üçün hazırlanmış ayrıca standartdır.*** Aktivlər, öhdəliklər, gəlir və xərclərin uçota alınması və qiymətləndirilməsi üzrə tam həcmli BMHS-lərin bir çox prinsipləri sadələşdirilmiş və tələb olunan məlumat açıqlamalarının sayı əhəmiyyətli dərəcədə asanlaşdırılmış və ixtisar edilmişdir. Kiçik və orta həcmli müəssisələr üçün BMHS kənar istifadəçilər üçün ümumi məqsədli maliyyə hesabatlarını dərc edən və ictimaiyyət qarşısında məsuliyyət daşıyan müəssisələr tərəfindən tətbiq edilə bilər. Bank, onun fəaliyyətinin ictimai əhəmiyyətliliyi ilə bağlı olaraq kiçik və orta həcmli müəssisələr üçün Beynəlxalq Maliyyə Hesabatı Standartı tətbiq edə bilməz.

Yuxarıda başqa cür göstərilmədiyi hallarda, hazırkı dəyişikliklər və şərhlər Bankın maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməmişdir.

## 6 Yeni Uçot Qaydaları

Bankın 1 yanvar 2010-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün məcburi xarakter daşıyan və ya Bank tərəfindən əvvəllər qəbul edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur:

***BMHŞK 17, Nağd olmayan aktivlərin səhmdarlar arasında bölüşdürülməsi*** (1 iyul 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu şərh, nağd olmayan aktivlərin səhmdarlara dividend şəklində ödənilməsi zaman uçot qaydasını əks etdirir. Müəssisə, nağd olmayan aktivlərin dividend şəklində səhmdarlara ödənilməsi öhdəliyini bölüşdürüləcək aktivlərin ədalətli dəyərində qiymətləndirməlidir. Bölüşdürülmüş nağd olmayan aktivlərin silinməsindən yaranan gəlir və ya zərər müəssisə tərəfindən dividendlər ödənildikdən sonra il üzrə mənfəət və zərərdə qeydə alınır. Bank nağd olmayan aktivləri səhmdarlar arasında bölüşdürmədiyinə görə BMHŞK 17 onun fəaliyyətinə tətbiq edilmir.

***BMHŞK 18, Müştərilər tərəfindən təqdim edilmiş aktivlərin köçürülməsi*** (1 iyul 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu şərh, müştərilər tərəfindən təqdim edilmiş aktivlərin köçürülməsini, xüsusilə aktiv anlayışının meyarlarına riayət olunması hallarını; aktivin uçotu və ilkin uçot zamanı onun dəyərinin qiymətləndirilməsini; ayrıca identifikasiya edilə bilən xidmətlərin (köçürülmüş aktivin əvəzində bir və ya daha çox xidmətlər) müəyyən edilməsi; gəlirin uçotu və müştərilər tərəfindən təqdim edilmiş aktivlərin köçürülməsinin uçotu qaydasını əks etdirir. BMHŞK 18-in Bankın maliyyə hesabatlarına hər hansı təsiri gözlənilmir.

***Səhm Emissiyalarının Təsnifləşdirilməsi – BMS 32 Standartına Dəyişiklik*** (8 oktyabr 2009-cu il tarixində dərc edilmişdir; 1 fevral 2010 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişiklik xarici valyutada ifadə olunan müəyyən səhm emissiyaları üzrə daxilolmaları maliyyə derivativləri kimi təsnifləşdirilməkdən azad edir.

**6 Yeni Uçot Qaydaları (davamı)**

***BMS 27, Konsolidasiya edilmiş və fərdi maliyyə hesabatları*** (2008-cu ilin yanvar ayında yenidən işlənmişdir; 1 iyul 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Yenidən işlənmiş BMS 27

şirkətdən ümumi gəlirlərin baş müəssisə sahiblərinə və nəzarət olunmayan pay sahiblərinə (bundan əvvəl "azlığın payı") aid edilməsini tələb edir (hətta nəzarət olunmayan pay üzrə nəticələrin kəsir olduğu təqdirdə). Qüvvədə olan standart əksər hallarda artıq zərərlərin baş müəssisənin sahiblərinə aid edilməsini tələb edir. Bundan əlavə, yenidən işlənmiş standartda göstərilir ki, baş müəssisənin törəmə müəssisədəki iştirak payında nəzarətin itirilməsi ilə nəticələnməyəcək dəyişikliklər səhm alətləri üzrə əməliyyatlar kimi uçota alınsın. Standart həmçinin törəmə müəssisə üzrə nəzarətin itirilməsi nəticəsində yaranan hər hansı mənfəət və zərərin müəssisə tərəfindən qiymətləndirilməsini müəyyənləşdirir. Nəzarətin itirildiyi tarixdə keçmiş törəmə müəssisədə saxlanılmış investisiyalar ədalətli dəyərlə ölçülməlidir. Hazırda Bank dəyişdirilmiş standartın onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

***BMHS 3, Müəssisələrin birləşməsi*** (2008-cu ilin yanvar ayında yenidən işlənmişdir; alış tarixi 1 iyul 2009 və ya bu tarixdən sonra başlayan birinci illik hesabat dövrünün başlanğıcı və ya sonra olan müəssisələrin birləşməsi üçün qüvvəyə minir). Yenidən işlənmiş BMHS 3, müəssisələrə nəzarət olunmayan iştirak paylarının mövcud

BMHS 3 üsulundan istifadə etməklə (alıcının əldə edilmiş müəssisənin identifikasiya edilə bilən xalis aktivlərində proporsional payı) və ya ədalətli dəyərlə qiymətləndirilməsi imkanı verir. Yenidən işlənmiş BMHS 3 müəssisələrin birləşməsində alış metodunun tətbiqi üzrə daha ətraflı təlimat verir. Qudvilə aid olan hissənin hesablanması məqsədilə, hər bir mərhələli alış prosesində bütün aktiv və öhdəliklərin ədalətli dəyərlə qiymətləndirilməsi tələbi hesabatdan çıxarılmışdır. Bunun əvəzində alıcı, müəssisələrin mərhələli birləşməsi zamanı satın alınan müəssisədə hər əvvəlki mərhələdə sahib olduğu payını alış tarixindəki ədalətli dəyərlə yenidən qiymətləndirməli və il üzrə yaranan hər hansı gəlir və ya zərəri mənfəət və zərər hesabatında uçota almalıdır. Alış ilə bağlı xərclər müəssisələrin birləşməsi əməliyyatından ayrıca tanınacaq və qudvil kimi yox, xərc kimi uçota alınacaqdır. Alıcı şirkət, alış tarixində alış ilə bağlı hər hansı şərti məbləğ üzrə öhdəliyi alış tarixində uçota almalıdır. Alış tarixindən sonra bu öhdəliyin dəyərindəki dəyişikliklər qudvilin təshih edilməsi yolu ilə deyil, tətbiq edilən digər BMHS-lərə uyğun olaraq uçota alınacaqdır. Yenidən işlənmiş BMHS 3 yalnız bir neçə müəssisənin iştirakı ilə müəssisələrin birləşməsini və təkcə müqavilə əsasında həyata keçirilmiş müəssisələrin birləşməsini əhatə edir. Hazırda Bank dəyişdirilmiş standartın onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

***Müvafiq hecləşdirilən maddələr – BMS 39, Maliyyə alətləri: tanınması və qiymətləndirilməsi Standartına Dəyişiklik*** (1 iyul 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlərə retrospektiv qaydada tətbiq edilməklə qüvvəyə minir). Bu dəyişiklik hecləşdirilən risk və ya nağd pul axınlarının bir hissəsi üçün hecləşdirmə uçotunun tətbiq edilə bilməsini müəyyən edən prinsiplərin ayrı-ayrı vəziyyətlərdə necə istifadə edildiyini göstərir. Bu dəyişikliyin Bankın maliyyə hesabatlarına təsiri gözlənilmir. Bank hecinq uçotunu aparmadığına görə, bu dəyişikliyin onun maliyyə hesabatlarına hər hansı təsiri gözlənilmir.

***BMHS 1, Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi*** (2008-cu ilin dekabr ayında edilmiş dəyişikliyi nəzərə alaraq, 1 iyul 2009 və ya bu tarixdən sonra başlayan dövr üçün BMHS-ə uyğun hazırlanmış ilk maliyyə hesabatlarına tətbiq edilir). Yenidən işlənmiş BMHS 1, istifadəçilərin Standarta edilmiş dəyişiklikləri başa düşməsi və mənimsəməsini asanlaşdırmaq üçün əvvəlki versiyaya edilmiş struktur dəyişikliklər ilə birlikdə öz məzmununu saxlamışdır. Bank, yenidən işlənmiş standartın onun maliyyə hesabatlarına təsir etmədiyi qənaətinə gəlmişdir.

***Bank üzrə Pul Şəklində Səhm Əsasında Ödənişlər - BMHS 2, Səhm Əsasında Ödənişlər Standartına Dəyişikliklər*** (1 yanvar 2010 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklərdə səhm əsasında ödənişlərin və ayrıca maliyyə hesabatlarında təsnifləşdirilməsi üsulları aydın şəkildə müəyyən edilir. Həmin dəyişikliklər qüvvədən düşmüş BMHŞK 8 və BMHŞK 11-də göstərilən təlimatı əks etdirir. Bu əlavələr standart üzrə şərhdə əvvəllər nəzərdə tutulmayan planları əhatə etmək üçün BMHŞK 11-də verilmiş təlimatı daha ətraflı açıqlayır. Dəyişikliklərdə həmçinin, standarta Əlavədə göstərilən anlayışların izahı verilir. Bank bu dəyişikliklərin onun maliyyə hesabatlarına hər hansı əhəmiyyətli təsirini gözləmir.

***BMHS-i İlk Dəfə Tətbiq Edən Müəssisələr üçün Əlavə İstisnalar – BMHS 1, BMHS-in İlk Dəfə Tətbiq Edilməsi Standartına Dəyişikliklər*** (1 yanvar 2010 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklər tam xərc metodundan istifadə edən müəssisələrin neft və qaz aktivlərinin uçotu ilə bağlı BMHS-ləri retrospektiv qaydada tətbiq etməkdən, həmçinin, qüvvədə olan icarə müqavilələrinə malik olan müəssisələrin həmin müqavilələri, müəssisələrin milli uçot standartlarını tətbiq edəcəyi təqdirdə əldə edəcəkləri nəticələr ilə eyni olduqda, BMHŞK 4 'Müqavilədə İcarə Əlamətlərinin Mövcudluğunun Müəyyən Edilməsi" Şərhinə uyğun olaraq təsnifləşdirməkdən azad edir. Bu dəyişikliklərin Bankın maliyyə hesabatlarına hər hansı təsiri gözlənilmir.

**6 Yeni Uçot Qaydaları (davamı)**

***Beynəlxalq Maliyyə Hesabatı Standartlarının təkmilləşdirilməsi (2009-cu ilin aprel ayında dərc edilmişdir; BMHS 2, BMS 38, BMHŞK 9 və BMHŞK 16-ya dəyişikliklər 1 iyul 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir; BMHS 5, BMHS 8, BMS 1, BMS 7, BMS 17, BMS 36 və BMS 39-a dəyişikliklər 1 yanvar 2010 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Təkmilləşdirmələr aşağıdakı standartlara və onlara dair şərhlərə edilmiş əsaslı dəyişikliklər və düzəlişlərdən ibarətdir: müəssisələr tərəfindən ümumi nəzarət olunan əməliyyatlara qoyuluşlar və birgə müəssisələrin yaradılmasının BMHS 2-yə uyğun olmadığının aydınlaşdırılması; BMHS 5 və digər standartlarda satış üçün nəzərdə tutulan uzunmüddətli aktivlər (və ya silinmə Banklarının) və ya dayandırılmış əməliyyatlar üzrə məlumatların açıqlanması tələblərinin aydınlaşdırılması; BMHS 8-ə əsasən hesabat verilən bütün seqmentlər üzrə cəmi aktiv və öhdəliklərin qiymətləndirilməsi ilə bağlı hesabatın hazırlanması tələbi (yalnız bu cür məbləğlər müntəzəm olaraq rəhbər işçiyə təqdim edildikdə); müəssisənin öz pay alətləri hesabına yerinə yetirilmiş bəzi öhdəliklərin uzunmüddətli öhdəliklər kimi təsnifləşdirilməsi üçün BMS 1-ə dəyişikliyin edilməsi;

yalnız aktivlərin uçota alınmasına təsir göstərən xərclərin investisiya fəaliyyəti kimi təsnifləşdirilməsi üçün BMS 1-ə dəyişikliyin edilməsi; hətta lizinq müddətinin sonunda torpaq üzrə mülkiyyət hüququnu ötürmədən, bəzi uzunmüddətli torpaq lizinqlərinin BMS 17-yə uyğun olaraq maliyyə lizinqi kimi təsnifləşdirilməsi; müəssisənin prinsipal və ya agent qismində fəaliyyət göstərməsini müəyyən etmək üçün BMS 18-də əlavə təlimatın verilməsi; gəlir yaradan vahidin aktivlərin birləşməsindən əvvəl əməliyyat seqmentindən artıq olmayacağının BMS 36-da aydınlaşdırılması; müəssisələrin birləşməsi nəticəsində əldə edilmiş qeyri-maddi aktivlərin ədalətli dəyərinin qiymətləndirilməsi ilə bağlı BMS 38-ə dəyişikliyin edilməsi; (i) müəssisələrin birləşməsi ilə nəticələnə bilən opsion müqavilələrinin BMS 39-a daxil edilməsi, (ii) nağd pul axınlarının hecləşdirilməsi alətləri üzrə gəlir və ya zərərin səhmdar kapitalından il üzrə mənfəət və zərərə köçürülməsi müddətinin aydınlaşdırılması və (iii) hətta opsion icra edilərkən borcverənə dəymiş zərər borcalan tərəfindən ödənildikdə, qabaqcadan ödəniş opsionunun əsas müqavilə ilə sıx əlaqəli olduğunu göstərmək üçün BMS 39-a dəyişikliyin edilməsi; ümumi nəzarət olunan əməliyyatlar zamanı əldə edilmiş müqavilələrdəki əlavə elementli derivativlər və birgə müəssisələrin yaradılmasının BMHŞK 9-a uyğun olmadığının aydınlaşdırılması; və hecinq alətlərinin özü hecləşdirilən xarici müəssisə tərəfindən saxlanıla bilməməsi haqqında məhdudiyyətin BMHŞK 16-dan çıxarılması. Bank, bu dəyişikliklərin onun maliyyə hesabatlarına hər hansı əhəmiyyətli təsirini gözləmir.

***BMS 24, Əlaqəli Tərəflərlə Əməliyyatlar Standartına Dəyişiklik (2009-cu ilin noyabr ayında dərc edilmişdir və 1 yanvar 2011 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMS 24, 2009-cu ildə yenidən nəzərdən keçirilmiş və nəticədə: (a) əlaqəli tərəf anlayışı sadələşdirilmiş, onun mənası dəqiqləşdirilmiş və uyğunsuzluqlar aradan qaldırılmışdır və (b) dövlət müəssisələri məlumatların təqdim edilməsi ilə bağlı tələblərdən qismən azad edilmişdir.

***BMHS 9, "Maliyyə Alətləri Hissə 1: Təsnifləşdirmə və Qiymətləndirmə"*** BMHS 9, 2010-cu ilin noyabr ayında dərc edilmişdir və 39 saylı BMS-də maliyyə aktivlərinin təsnifləşdirilməsi və qiymətləndirilməsi bölmələrini əvəz edir. Onun əsas fərqləri aşağıda göstərilir:

- Maliyyə aktivləri iki qiymətləndirmə kateqoriyasında təsnifləşdirilməlidir: ilkin qiymətləndirmədən sonra ədalətli dəyərlə qiymətləndirilən aktivlər və ilkin qiymətləndirmədən sonra amortizasiya edilmiş dəyərlə qiymətləndirilən aktivlər. Təsnifləşdirmə ilə bağlı qərar ilkin uçot zamanı qəbul edilməlidir. Təsnifləşdirmə, müəssisənin maliyyə alətlərinin idarə edilməsi üzrə biznes modeldən və alət üzrə nağd pul axınlarının xüsusiyyətindən asılıdır.

- Maliyyə aləti yalnız borc aləti olduqda ilkin qiymətləndirmədən sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilir. Eyni zamanda bu aktiv aşağıdakı tələblərə cavab verməlidir: (i) müəssisənin biznes modelinin məqsədi aktivi saxlamaq yolu ilə onun yaratdığı nağd pul axınlarını əldə etməkdən ibarətdir və (ii) aktivin yaratdığı nağd pul axınları yalnız əsas məbləği və faiz ödənişlərini əks etdirir (yəni, maliyyə aləti yalnız 'kreditin ən sadə xüsusiyyətlərinə' malikdir). Bütün digər borc alətləri mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə qiymətləndirilməlidir.

- Bütün pay alətləri ilkin qiymətləndirmədən sonra ədalətli dəyərlə qiymətləndirilməlidir. Satış üçün nəzərdə tutulan pay alətləri mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə qiymətləndirilməli və əks etdirilməlidir. Bütün digər pay qoyuluşları ilə bağlı ədalətli dəyərlə yenidən qiymətləndirmə üzrə realizasiya edilməmiş və realizasiya edilmiş gəlir və zərərlərin mənfəət və zərər kimi deyil, digər məcmu gəlirlər kateqoriyasında uçota alınması üçün ilkin uçot zamanı yekun seçim edilə bilər. Ədalətli dəyərlə yenidən qiymətləndirmə üzrə gəlir və xərclər mənfəət və zərərə aid edilmir. Bu seçim hər bir maliyyə aləti üçün fərdi qaydada tətbiq edilə bilər. Dividendlər, investisiya üzrə gəlirləri əks etdirdiyinə görə mənfəət və zərər hesabında göstərilməlidir.

## 6 Yeni Uçot Qaydaları (davamı)

- BMHS 9, 1 yanvar 2013-cü il tarixindən məcburi şəkildə tətbiq edilir, lakin həmin standartın bu tarixdən əvvəl tətbiqinə icazə verilir.

Hazırda Bank bu standartın tətbiqi nəticələrini, onun maliyyə hesabatlarına təsirini və tətbiq olunma tarixini nəzərdən keçirir.

Yuxarıda başqa cür göstərilmədiyi hallarda, hazırkı yeni standartlar və şərhlər Bankın maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməyəcəkdir.

## 7 Pul Vəsaitləri və Onların Ekvivalentləri

| *Azərbaycan Manatı ilə* | **2010** | **2009** |
|---|---|---|
| Nağd pul | 679,924 | 5,486,772 |
| ARMB-dəki qalıqlar | 2,701,393 | 1,250,257 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **3,381,317** | **6,737,029** |
| Cıxılsın ARMB-dəki məcburi ehtiyatlar | (60,589) | (51,017) |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **3,320,728** | **6,686,012** |

Azərbaycan Respublikası Mərkəzi Bankında yerləşdirilən vəsaitlərə 31 dekabr 2010-cu və 31 dekabr 2009-cu il tarixlərinə müvafiq olaraq 60,589 AZN və 51,017AZN müştəri hesabları üzrə tələb olunan minimum ehtiyatlar aiddir.

31 dekabr 2010-cu il tarixində pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | **Nağd pul** | **ARMB-dəki qalıqlar** | **Cəmi** |
|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | |
| - Nağd pul | 679,924 | - | **679,924** |
| - Azərbaycan Hökumətində | - | 2,701,393 | **2,701,393** |
| -Digər ölkələrdə | - | - | - |
| **Cəmi cari və dəyərsizləşməmiş** | **679,924** | **2,701,393** | **3,381,317** |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **679,924** | **2,701,393** | **3,381,317** |

31 dekabr 2009-cu il tarixində pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | **Nağd pul** | **ARMB-dəki qalıqlar** | **Cəmi** |
|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | |
| - Nağd pul | 5,486,772 | - | **5,486,772** |
| - Azərbaycan Hökumətində | - | 1,250,257 | **1,250,257** |
| -Digər ölkələrdə | - | - | - |
| **Cəmi cari və dəyərsizləşməmiş** | **5,486,772** | **1,250,257** | **6,737,029** |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **5,486,772** | **1,250,257** | **6,737,029** |

Pul vəsaitləri və onların ekvivalentlərinin faiz dərəcələri üzrə təhlili 28 saylı Qeyddə göstərilir. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat 33 saylı Qeyddə açıqlanır.

## 8 Digər Banklar və Maliyyə İnstitutlarından Alınacaq Vəsaitlər

| *Azərbaycan Manatı ilə* | 2010 | 2009 |
|---|---|---|
| Digər banklardakı vəsaitlər | 36,811 | 35,671 |
| Qeyri-rezident maliyyə institutundakı yerləşdirmə | 14,296 | 37 |
| Digər banklardakı qısamüddətli depozitlər | 39,895 | 40,155 |
| **Cəmi digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər** | **91,002** | **75,863** |

31 dekabr 2010-cu və 31 dekabr 2009-cu il tarixinə qeyri-rezident maliyyə institutundakı yerləşdirməyə xarici bankda müxbir hesabın qalığı daxildir. Bank bu vəsaitləri müştərilərin əməliyyatlarını həyata keçirmək məqsədilə istifadə edir.

31 dekabr 2010-cu il tarixində digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlərin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | Qeyri-rezident maliyyə institutundakı yerləşdirmə | Digər banklardakı qısamüddətli depozitlər | Digər banklardakı vəsaitlər | Cəmi |
|---|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | | |
| - Digər Azərbaycan banklarında | - | 39,895 | 36,811 | **76,706** |
| - İƏİT-yə üzv ölkələrin banklarında | 131 | - | - | **131** |
| - İƏİT-yə üzv olmayan ölkələrin banklarında | 14,165 | - | - | **14,165** |
| **Cəmi cari və dəyərsizləşməmiş** | **14,296** | **39,895** | **36,811** | **91,002** |

31 dekabr 2009-cu il tarixində digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlərin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | Qeyri-rezident maliyyə institutundakı yerləşdirmə | Digər banklardakı qısamüddətli depozitlər | Digər banklardakı vəsaitlər | Cəmi |
|---|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | | |
| -Digər Azərbaycan banklarında | - | 40,155 | 35,671 | **75,826** |
| -Azərbaycan Hökumətində | | | | |
| -İƏİT-yə üzv ölkələrin banklarında | 37 | - | - | **37** |
| -İƏİT-yə üzv olmayan ölkələrin banklarında | - | - | - | - |
| **Cəmi cari və dəyərsizləşməmiş** | **37** | **40,155** | **35,671** | **75,863** |

31 dekabr 2010 və 31 dekabr 2009-cu il tarixlərində digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlərin hər bir kateqoriyasının balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2010-cu il tarixində digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlərin təxmin edilən ədalətli dəyəri 91,002 AZN (2009: 75,863 AZN) təşkil etmişdir.

Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlərin faiz dərəcələri üzrə təhlili 28 saylı Qeyddə göstərilir.

## 9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar

| *Azərbaycan Manatı ilə* | **2010** | **2009** |
|---|---|---|
| Korporativ kreditlər | 33,120,196 | 23,918,573 |
| İpoteka kreditləri | 21,395,006 | 10,136,501 |
| Mənzil təmiri | 6,247,087 | 7,481,973 |
| Kənd təsərrüfatı kreditləri | 4,768,964 | 3,197,731 |
| İstehlak kreditləri | 643,152 | 1,403,701 |
| Ticarət və xidmət sektoruna verilmiş kreditlər | 379,682 | 411,693 |
| İnşaat kreditləri | 369,687 | 463,044 |
| Avtomobil kreditləri | 238,228 | 357,517 |
| Sənaye kreditləri | 156,486 | 829,102 |
| Kredit kartları | 118,586 | 85,440 |
| **Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat çıxılmaqla** | **(4,565,379)** | **(4,010,171)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **62,871,695** | **44,275,104** |

21,395,006 AZN məbləğində (31 dekabr 2009: 10,136,501 AZN) cəmi ipoteka kreditlərindən 424,675 AZN məbləği (31 dekabr 2009: 0.00 AZN) Azərbaycan İpoteka Fondu ilə bağlanmış müqavilədə nəzərdə tutulan proqram çərçivəsində ayrılmışdır. 17 saylı Qeydə baxın.

## 9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

2010-cu il ərzində kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın hərəkəti aşağıdakı kimidir:

| *Azərbaycan Manatı ilə* | **Korporativ kreditlər** | **İpoteka kreditləri** | **Mənzil təmiri kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **İstehlak kreditləri** | **Ticarət və xidmət** | **İnşaat kreditləri** | **Avtomobil kreditləri** | **Sənaye kreditləri** | **Kredit kartları** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1 yanvar 2010-cu il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **2,407,300** | **500,953** | **735,310** | **48,750** | **251,985** | **21,380** | **15,225** | **23,377** | **2,924** | **2,967** | **4,010,171** |
| İl ərzində ehtiyatın yaradılması | (30,643) | 569,012 | 1,035,186 | 207,051 | 46,895 | 1,676 | 2,945 | 15,795 | 24,619 | 11,442 | **1,883,978** |
| İl ərzində silinmiş borclar | (1,184,792) | - | (75,608) | - | (55,514) | - | - | (12,856) | - | - | **(1,328,770)** |
| **31 dekabr 2010-cu il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **1,191,865** | **1,069,965** | **1,694,888** | **255,801** | **243,366** | **23,056** | **18,170** | **26,316** | **27,543** | **14,409** | **4,565,379** |

2009-cu il ərzində kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın hərəkəti aşağıdakı kimidir:

| *Azərbaycan Manatı ilə* | **Korporativ kreditlər** | **İpoteka kreditləri** | **Mənzil təmiri kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **İstehlak kreditləri** | **Ticarət və xidmət** | **İnşaat kreditləri** | **Avtomobil kreditləri** | **Sənaye kreditləri** | **Kredit kartları** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1 yanvar 2009-cu il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **1,436,485** | **597,578** | **441,001** | **188,467** | **82,742** | **24,133** | **27,293** | **20,973** | **48,840** | **5,458** | **2,872,970** |
| İl ərzində ehtiyatın yaradılması | **970,815** | **(96,625)** | **294,309** | **(139,717)** | **169,243** | **(2,753)** | **(12,068)** | **2,404** | **(45,916)** | **(2,491.00)** | **1,137,201** |
| İl ərzində silinmiş borclar | - | - | - | - | - | - | - | - | - | - | **-** |
| **31 dekabr 2009-cu il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **2,407,300** | **500,953** | **735,310** | **48,750** | **251,985** | **21,380** | **15,225** | **23,377** | **2,924** | **2,967.00** | **4,010,171** |

## 9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

Kredit portfelinin iqtisadi sektorlar üzrə bölgüsü aşağıdakı kimidir:

| | 2010 | | 2009 | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Məbləğ** | **%** | **Məbləğ** | **%** |
| *Fiziki şəxslər* | | | | |
| - ipoteka kreditləri | 21,395,006 | 32% | 10,136,501 | 21% |
| - mənzil təmiri kreditləri | 6,247,087 | 9% | 7,481,973 | 15% |
| - kənd təsərrüfatı kreditləri | 4,768,964 | 7% | 3,197,731 | 7% |
| - istehlak kreditləri | 643,152 | 1% | 1,403,701 | 3% |
| - ticarət və xidmət kreditləri | 379,682 | 1% | 411,693 | 1% |
| - inşaat kreditləri | 369,687 | 1% | 463,044 | 1% |
| - avtomobil kreditləri | 238,228 | 0% | 357,517 | 1% |
| - sənaye kreditləri | 156,486 | 0% | 829,102 | 1% |
| - plastik kartlar | 118,586 | 0% | 85,440 | 0% |
| **Cəmi fiziki şəxslərə verilmiş kreditlər** | **34,316,878** | **51%** | **24,366,702** | **50%** |
| *Hüquqi şəxslər* | | | | |
| Nəqliyyat | 9,709,853 | 14% | 5,587,361 | 12% |
| İnşaat | 9,562,668 | 14% | 8,288,615 | 17% |
| Kənd təsərrüfatı | 5,341,483 | 8% | 2,917,483 | 6% |
| Sənaye | 4,305,599 | 7% | 4,642,451 | 10% |
| Ticarət və xidmət | 4,200,593 | 6% | 2,482,663 | 5% |
| **Cəmi hüquqi şəxslərə verilmiş kreditlər** | **33,120,196** | **49%** | **23,918,573** | **50%** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar (ehtiyat ayırmalarından əvvəl)** | **67,437,074** | **100%** | **48,285,275** | **100%** |

31 dekabr 2010-cu il tarixində Bankın kredit portfelində ümumi kredit qalığından 23,391,722 AZN olan 10 iri borcalanı olmuşdur ki, bu da ümumi kredit portfelinin 34.69%-ni təşkil edir (31 dekabr 2009: Bankın kredit portfelində ümumi kredit qalığı 15,165,680 AZN olan 10 iri borcalanı olmuşdur ki, bu da ümumi kredit portfelinin 31.41%-ni təşkil etmişdir).

31 dekabr 2010-cu il tarixində Bank tərəfindən əlaqəli tərəflərə verilmiş kreditlərin qalığı 1,261,221 AZN (31 dekabr 2009: 1,163,173 AZN) olmuşdur ki, bu da ümumi kredit portfelinin 1.9 %-ni (2009: 2.4%) təşkil etmişdir. 33 saylı Qeydə baxın.

**9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)**

31 dekabr 2010-cu il tarixində girov təminatı haqqında məlumat aşağıda göstərilir:

| *Azərbaycan Manatı ilə* | **Korporativ kreditlər** | **İpoteka kreditləri** | **Mənzil təmiri kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **İstehlak kreditləri** | **Ticarət və xidmət** | **İnşaat kreditləri** | **Avtomobil kreditləri** | **Sənaye kreditləri** | **Kredit kartları** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təminatsız kreditlər | 5,373,273 | 15,666,067 | 3,907,921 | 2,139,041 | 40,498 | 3,606 | 158,661 | 6,550 | 34,407 | 110,117 | **27,440,141** |
| Aşağıdakılarla təmin edilmiş kreditlər: | | | | | | | | | | | |
| - yaşayış sahəsi | 8,826,184 | 1,366,383 | 1,344,621 | 2,277,110 | 1,878 | 75,827 | - | - | 99,337 | - | **13,991,340** |
| - digər daşınmaz əmlak | 10,605,339 | 4,135,162 | 328,708 | 305,156 | - | - | 211,026 | - | - | - | **15,585,391** |
| - daşınar əmlak | 4,250,690 | 22,500 | 38,246 | 47,657 | 600,776 | 300,249 | - | 231,678 | 22,742 | - | **5,514,538** |
| - pul depozitləri | 4,064,710 | 204,019 | 268,570 | - | - | - | - | - | - | 8,469 | **4,545,768** |
| - zinnət əşyaları | - | 875 | 359,021 | - | - | - | - | - | - | - | **359,896** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **33,120,196** | **21,395,006** | **6,247,0877** | **4,768,9644** | **643,152** | **379,682** | **369,687** | **238,228** | **156,486** | **118,586** | **67,437,074** |

31 dekabr 2009-cu il tarixində girov təminatı haqqında məlumat aşağıda göstərilir:

| *Azərbaycan Manatı ilə* | **Korporativ kreditlər** | **İpoteka kreditləri** | **Mənzil təmiri kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **İstehlak kreditləri** | **Ticarət və xidmət** | **İnşaat kreditləri** | **Avtomobil kreditləri** | **Sənaye kreditləri** | **Kredit kartları** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təminatsız kreditlər | 2,332,839 | 8,706,877 | 4,712,529 | 1,230,308 | 264,489 | 12,046 | 185,400 | - | 86,752 | 85,440 | **17,616,680** |
| Aşağıdakılarla təmin edilmiş kreditlər: | | | | | | | | | | | |
| - yaşayış sahəsi | 8,085,880 | 1,429,624 | 1,929,491 | 834,845 | 2,020 | 86,017 | 277,644 | - | - | - | **12,645,521** |
| - digər daşınmaz əmlak | 2,021,470 | - | - | 1,048,533 | - | - | - | - | 91,377 | - | **3,161,380** |
| - daşınar əmlak | 7,247,425 | - | 25,892 | 83,299 | 1,111,815 | 313,630 | - | 357,517 | 650,973 | - | **9,790,551** |
| - pul depozitləri | 4,230,959 | - | 391,441 | - | 25,377 | - | - | - | - | - | **4,647,777** |
| - zinnət əşyaları | - | - | 422,620 | 746 | - | - | - | - | - | - | **423,366** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **23,918,573** | **10,136,501** | **7,481,973** | **3,197,731** | **1,403,701** | **411,693** | **463,044** | **357,517** | **829,102** | **85,440** | **48,285,275** |

**9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)**

31 dekabr 2010-cu il tarixində kreditlərin keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | İpoteka kreditləri | Mənzil təmiri kreditləri | Kənd təsərrüfatı kreditləri | İstehlak kreditləri | Ticarət və xidmət | İnşaat kreditləri | Avtomobil kreditləri | Sənaye kreditləri | Kredit kartları | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | | | | | | | | | |
| - Bir ildən çox kredit tarixçəsinə malik olan iri borcalanlar | 14,541,531 | 3,751,750 | - | - | - | - | - | - | - | - | **18,293,281** |
| - İri yeni borcalanlar | 12,691,362 | 11,053,149 | - | - | - | - | - | - | - | - | **23,744,511** |
| - Digər | 4,672,048 | 4,455,446 | 2,888,445 | 4,298,720 | 321,768 | 324,370 | 362,402 | 172,860 | 57,149 | 95,157 | **17,648,365** |
| **Cəmi cari və dəyərsizləşməmiş** | **31,904,941** | **19,260,345** | **2,888,445** | **4,298,720** | **321,768** | **324,370** | **362,402** | **172,860** | **57,149** | **95,157** | **59,686,157** |
| *Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş* | | | | | | | | | | | |
| - ödənişin 30 gündən az gecikdirilməsi | 158,085 | 182,880 | 132,129 | 6,157 | 13,681 | 18 | 535 | 3,167 | - | - | **496,652** |
| - ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | 221,051 | 2,793 | 62,185 | 97,825 | 12,554 | - | 6,750 | 3,738 | - | 49 | **406,945** |
| **Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | **379,136** | **185,673** | **194,314** | **103,982** | **26,235** | **18** | **7,285** | **6,905** | **-** | **49** | **903,597** |

**9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)**

31 dekabr 2010-cu il tarixində kreditlərin keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | İpoteka kreditləri | Mənzil təmiri kreditləri | Kənd təsərrüfatı kreditləri | İstehlak kreditləri | Ticarət və xidmət | İnşaat kreditləri | Avtomobil kreditləri | Sənaye kreditləri | Kredit kartları | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ)* | | | | | | | | | | | |
| - ödənişin 90 gündən 180 günədək gecikdirilməsi | 386,656 | 1,516,347 | 936,548 | 164,751 | 50,970 | 55,294 | - | 45,334 | 99,337 | 13,650 | **3,268,887** |
| - ödənişin 180 gündən 360 günədək gecikdirilməsi | 364,463 | - | 813,234 | 86,680 | 36,146 | - | - | 2,434 | - | - | **1,302,957** |
| - ödənişin 360 gündən artıq gecikdirilməsi | 85,000 | 432,641 | 1,414,546 | 114,831 | 208,033 | - | - | 10,695 | - | 9,730 | **2,275,476** |
| **Cəmi fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ)** | **836,119** | **1,948,988** | **3,164,328** | **366,262** | **295,149** | **55,294** | **-** | **58,463** | **99,337** | **23,380** | **6,847,320** |
| **Kreditlərin ümumi balans dəyəri** | **33,120,196** | **21,395,006** | **6,247,087** | **4,768,964** | **643,152** | **379,682** | **369,687** | **238,228** | **156,486** | **118,586** | **67,437,074** |
| **Dəyərsizləşmə üzrə ehtiyat Çıxılmaqla** | **(1,191,865)** | **(1,069,965)** | **(1,694,888)** | **(255,801)** | **(243,366)** | **(23,056)** | **(18,170)** | **(26,316)** | **(27,543)** | **(14,409)** | **(4,565,379)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **31,928,331** | **20,325,041** | **4,552,199** | **4,513,163** | **399,786** | **356,626** | **351,517** | **211,912** | **128,943** | **104,177** | **62,871,695** |

**9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)**

31 dekabr 2009-cu il tarixində kreditlərin keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | İpoteka kreditləri | Mənzil təmiri kreditləri | Kənd təsərrüfatı kreditləri | İstehlak kreditləri | Ticarət və xidmət | İnşaat kreditləri | Avtomobil kreditləri | Sənaye kreditləri | Kredit kartları | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | | | | | | | | | |
| - Bir ildən çox kredit tarixçəsinə malik olan iri borcalanlar | 4,610,000 | - | - | - | - | - | - | - | - | - | 4,610,000 |
| - İri yeni borcalanlar | 7,100,000 | - | - | - | - | - | - | - | - | - | 7,100,000 |
| - Diqər | 10,097,888 | 9,825,421 | 6,010,540 | 2,800,528 | 1,062,827 | 411,693 | 463,044 | 316,174 | 828,298 | 74,965 | 31,891,378 |
| **Cəmi cari və dəyərsizləşməmiş** | **21,807,888** | **9,825,421** | **6,010,540** | **2,800,528** | **1,062,827** | **411,693** | **463,044** | **316,174** | **828,298** | **74,965** | **43,601,378** |
| *Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş* | | | | | | | | | | | |
| - ödənişin 30 gündən az gecikdirilməsi | 24,732 | 10,517 | 239,170 | 338 | 26,198 | - | - | 8,439 | - | 1,814 | 311,208 |
| - ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | 186,366 | - | 128,573 | 74 | 9,722 | - | - | 3,905 | - | - | 328,640 |
| **Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | **211,098** | **10,517** | **367,743** | **412** | **35,920** | **-** | **-** | **12,344** | **-** | **1,814** | **639,848** |

## 9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

31 dekabr 2009-cu il tarixində kreditlərin keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | İpoteka kreditləri | Mənzil təmiri kreditləri | Kənd təsərrüfatı kreditləri | İstehlak kreditləri | Ticarət və xidmət | İnşaat kreditləri | Avtomobil kreditləri | Sənaye kreditləri | Kredit kartları | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ)* | | | | | | | | | | | |
| - ödənişin 90 gündən 180 günədək gecikdirilməsi | 118,317 | 300,563 | 287,924 | 25,171 | 22,452 | - | - | - | - | 2,558 | 756,985 |
| - ödənişin 180 gündən 360 günədək gecikdirilməsi | 414,338 | - | 171,407 | 284,633 | - | - | - | 6,010 | - | 6,103 | 882,491 |
| - ödənişin 360 gündən artıq gecikdirilməsi | 1,366,932 | - | 644,359 | 86,987 | 282,502 | - | - | 22,989 | 804 | - | 2,404,573 |
| **Cəmi fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ** | **1,899,587** | **300,563** | **1,103,690** | **396,791** | **304,954** | **-** | **-** | **28,999** | **804** | **8,661** | **4,044,049** |
| **Kreditlərin ümumi balans dəyəri** | **23,918,573** | **10,136,501** | **7,481,973** | **3,197,731** | **1,403,701** | **411,693** | **463,044** | **357,517** | **829,102** | **85,440** | **48,285,275** |
| **Dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla** | **(2,407,300)** | **(500,953)** | **(735,310)** | **(48,750)** | **(251,985)** | **(21,380)** | **(15,225)** | **(23,377)** | **(2,924)** | **(2,967)** | **(4,010,171)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **21,511,273** | **9,635,548** | **6,746,663** | **3,148,981** | **1,151,716** | **390,313** | **447,819** | 334,140 | **826,178** | **82,473** | **44,275,104** |

Bank *BMS 39, Maliyyə Alətləri: Tanınması və Qiymətləndirilməsi* Standartında nəzərdə tutulan portfel üzrə ehtiyatın yaradılması metodologiyasını tətbiq etmiş və baş vermiş, lakin hesabat dövrünün sonuna heç bir fərdi kredit üzrə konkret olaraq müəyyən edilməmiş dəyərsizləşmə zərərləri üçün portfel üzrə ehtiyat yaratmışdır. Bankın siyasəti kreditin dəyərsizləşməsinə dair konkret olaraq obyektiv dəlil müəyyən edilməyənə qədər hər bir krediti 'cari və dəyərsizləşməmiş' kateqoriyasına təsnifləşdirməkdir.

.

## 9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

Cari və dəyərsizləşməmiş, lakin yenidən baxılmış kreditlər artıq şərtlərinə baxılmış və əks təqdirdə vaxtı keçmiş və dəyərsizləşmiş ola bilən kreditlərin balans dəyərini əks etdirir. Təminatın ədalətli dəyəri gecikdirilmiş faiz ödənişləri və əsas məbləğin ödənilməsinə kifayət edir. Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kimi göstərilən məbləğlər kreditin yalnız ayrı-ayrı ödənişlərinin vaxtı keçmiş məbləğini deyil, bu cür kreditlərin bütün qalığını əks etdirir.

31 dekabr 2010-cu il tarixində vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər və fərdi şəkildə dəyərsizləşmiş kreditlər üzrə təminatın ədalətli dəyəri aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | **Korporativ kreditlər** | **Ticarət və xidmət** | **Avtomobil kreditləri** | **İstehlak kreditləri** | **İpoteka kreditləri** | **Kənd təsərrüfatı kreditləri** | **İnşaat kreditləri** | **Kredit kartları** | **Mənzil təmiri kreditləri** | **Sənaye kreditləri** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər üzrə təminatın ədalətli dəyəri* | | | | | | | | | | | |
| - yaşayış sahəsi | 195,500 | - | - | - | 353,160 | 693,800 | - | - | 595,000 | - | 1,837,460 |
| - digər daşınmaz əmlak | 500,000 | - | - | - | - | - | 180,000 | - | | - | 680,000 |
| - daşınar əmlak | - | 380 | 175,500 | 223,103 | - | 24,000 | - | - | 38,600 | - | 461,583 |
| - pul depozitləri | - | - | - | - | - | - | - | - | 84,000 | - | 84,000 |
| - zinnət əşyaları | - | - | - | - | - | - | - | - | 40,882 | - | 40,882 |
| *Fərdi şəkildə dəyərsizləşmiş kreditlər üzrə təminatın ədalətli dəyəri* | | | | | | | | | | | |
| - yaşayış sahəsi | 882,000 | 110,500 | - | 6,700 | 394,800 | 756,800 | - | - | 1,697,100 | 98,000 | 3,945,900 |
| - digər daşınmaz əmlak | - | - | - | - | 3,878,000 | - | - | - | - | - | 3,878,000 |
| - daşınar əmlak | 10,000 | | 169,900 | 441,865 | - | - | - | - | 54,000 | - | 675,765 |
| - pul depozitləri | - | - | - | - | - | - | - | - | 120,630 | - | 120,630 |
| - zinnət əşyaları | - | - | - | - | - | - | - | - | 13,020 | - | 13,020 |
| **Cəmi** | **1,587,500** | **110,880** | **345,400** | **671,668** | **4,625,960** | **1,474,600** | **180,000** | **-** | **2,643,232** | **98,000** | **11,737,240** |

## 9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

31 dekabr 2009-cu il tarixində vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər və fərdi şəkildə dəyərsizləşmiş kreditlər üzrə təminatın ədalətli dəyəri aşağıdakı cədvəldə göstərilir:

| Azərbaycan Manatı ilə | Korporativ kreditlər | Ticarət və xidmət | Avtomobil kreditləri | İstehlak kreditləri | İpoteka kreditləri | Kənd təsərrüfatı kreditləri | İnşaat kreditləri | Kredit kartları | Mənzil təmiri kreditləri | Sənaye kreditləri | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər üzrə təminatın ədalətli dəyəri | | | | | | | | | | | |
| - yaşayış sahəsi | 310,000 | - | - | - | 400,000 | - | - | - | 872,200 | - | 1,582,200 |
| - digər daşınmaz əmlak | - | - | - | - | - | - | - | - | | - | |
| - daşınar əmlak | 278,689 | | 16,480 | 438,340 | - | - | - | - | 450 | - | 733,959 |
| - pul depozitləri | 180,000 | - | - | - | - | - | - | - | | - | 180,000 |
| - zinnət əşyaları | - | - | - | - | - | - | - | - | 45,613 | - | 45,613 |
| Fərdi şəkildə dəyərsizləşmiş kreditlər üzrə təminatın ədalətli dəyəri | | | | | | | | | | | |
| - yaşayış sahəsi | 1,042,000 | - | - | 4,574 | - | 105,000 | - | - | 942,990 | - | 2,094,564 |
| - digər daşınmaz əmlak | - | - | - | - | 394,800 | - | - | - | | - | 394,800 |
| - daşınar əmlak | 1,914,044 | - | 41,471 | 367,207 | - | 5,020 | - | - | 14,417 | 7,820 | 2,349,979 |
| - pul depozitləri | - | - | - | 33,168 | - | - | - | - | - | - | 33,168 |
| **Cəmi** | **3,724,733** | **-** | **57,951** | **843,289** | **794,800** | **110,020** | **-** | **-** | **1,875,670** | **7,820** | **7,414,283** |

Balans tarixinə yaşayış sahəsinin ədalətli dəyəri şəhər və rayonlar üzrə daşınmaz əmlak bazarındakı qiymətlərin orta artımını nəzərə alaraq, kreditin verildiyi tarixdə Bankın kredit departamentinin işçiləri tərəfindən müəyyən edilmiş məbləğlərin indeksasiyası yolu ilə təxmin edilmişdir. Digər yaşayış sahələri və digər aktivlərin ədalətli dəyəri Bankın və kənar xidmət təşkilatlarının daxili təlimatlarına əsasən Bankın kredit departamenti tərəfindən müəyyən edilmişdir.

## 9 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

31 dekabr 2010 və 31 dekabr 2009-cu il tarixlərində müştərilərə verilmiş kreditlər və avansların hər bir kateqoriyasının balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2010-cu il tarixində müştərilərə verilmiş kreditlər və avansların təxmin edilən ədalətli dəyəri 62,871,695 AZN (2009: 44,275,104 AZN) təşkil etmişdir.

Müştərilərə verilmiş kreditlər və avansların faiz dərəcəsi üzrə təhlili 28 saylı Qeyddə göstərilir. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat 33 saylı Qeyddə açıqlanır.

## 10 Satıla bilən investisiya qiymətli kağızları

Milli Kart prosessinq mərkəzinə 156,800 AZN məbləğində investisiya qoyuluşu 2006-cı ildə həyata keçirilmişdir ki, bu da müəssisənin ümumi nizamnamə kapitalının 4%-ni təşkil edir. Milli Kart şirkəti plastik kartların buraxılması və prosessinq xidmətləri göstərir. Buna görə rəhbərlik hesab edir ki, bu investisiya qoyuluşunun ədalətli dəyəri onun 156,800 AZN (2009: 156,800 AZN) məbləğində balans dəyərindən əhəmiyyətli dərəcədə fərqlənmir.

| *Azərbaycan Manatı ilə* | **2010** | **2009** |
|---|---|---|
| Satıla bilən investisiya qiymətli kağızları | 156,800 | 156,800 |
| **Cəmi satıla bilən investisiya qiymətli kağızları** | **156,800** | **156,800** |

31 dekabr 2010-cu il tarixində satıla bilən əsas pay qiymətli kağızları aşağıda göstərilir:

| **Adı** | **Fəaliyyət növü** | **Qeydiyyat ölkəsi** | **Ədalətli dəyər** | |
|---|---|---|---|---|
| | | | **2010** | **2009** |
| Milli Kart | Kart prosessinqi | Azərbaycan Respublikası | 156,800 | 156,800 |
| **Cəmi** | | | **156,800** | **156,800** |

## 11 Binalar və avadanlıqlar aşağıdakılardan ibarətdir:

| | Binalar | Mebel və qurğular | Komputer avadanlıqları | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Balans dəyəri** | | | | | | |
| 31 dekabr 2008 | 4,607,040 | 187,881 | 125,665 | 303,935 | **-** | **5,224,521** |
| Əlavələr | - | 885 | 24,462 | 106,000 | 4,640 | **135,987** |
| Silinmə/Satılma | - | - | (172) | - | - | **(172)** |
| 31 dekabr 2009 | **4,607,040** | **188,766** | **149,955** | **409,935** | **4,640** | **5,360,336** |
| Əlavələr | - | 68,775 | 54,043 | - | - | **122,818** |
| Silinmə/Satılma | (1,263,000) | (13,041) | (22,915) | (125,000) | - | **(1,423,956)** |
| 31 dekabr 2010 | **3,344,040** | **244,500** | **181,083** | **284,935** | **4,640** | **4,059,198** |
| **Yığılmış amortizasiya** | | | | | | |
| 31 dekabr 2008 | **1,170,291** | **112,073** | **46,879** | **145,668** | **-** | **1,474,911** |
| Illik amortizasiya | 92,141 | 21,306 | 26,937 | 72,361 | 502 | **213,247** |
| Silinmə/Satılma | - | - | (172) | - | - | **(172)** |
| 31 dekabr 2009 | **1,262,432** | **133,379** | **73,644** | **218,029** | **502** | **1,687,986** |
| Illik amortizasiya | 66,881 | 21,585 | 30,179 | 48,650 | 927 | **168,222** |
| Silinmə/Satılma | (234,535) | (13,041) | (22,915) | (52,083) | - | **(322,574)** |
| 31 dekabr 2010 | **1,094,778** | **141,923** | **80,908** | **214,596** | **1,429** | **1,533,634** |
| **Qalıq dəyəri** | | | | | | |
| **31 dekabr 2009** | **3,344,608** | **55,387** | **76,311** | **191,906** | **4,138** | **3,672,350** |
| **31 dekabr 2010** | **2,249,262** | **102,577** | **100,175** | **70,339** | **3,211** | **2,525,564** |

2010-cı ilin silinmələrində "Mebel və qurğular" da 13,041AZN "Komputer avadanlıqları"da isə 22,915 AZN sıfır dəyəri ilə istifadəyə yararsiz olan əsəs vəsaitlər aiddir, "Binalar" kateqoriyasında olan 1,263,000 AZN binaların qeri qaytarılmasından yaranan məbləğdir "Nəqliyyat vasitələri" ndə isə 72,916 AZN avtomobilin satışından bağlı olan silinmədir (31 dekabr 2009: 712 AZN).

## 12 Qeyri maddi aktivlər

| *Min Azərbaycan Manatı ilə* | Qeyri maddi aktivlər |
|---|---|
| **Maya dəyəri ilə** | |
| **31 dekabr 2008** | **18,628** |
| Əlavələr | 2,301 |
| Silinmə/Satılma | - |
| **31 dekabr 2009** | **20,929** |
| Əlavələr | 3,044 |
| Silinmə/Satılma | (1,322) |
| **31 dekabr 2010** | **22,651** |
| | |
| **Yığılmış köhnəlmə** | |
| **31 dekabr 2008** | **11,503** |
| Illik amortizasiya | 2,843 |
| **31 dekabr 2009** | **14,346** |
| Illik amortizasiya | 2,001 |
| Silinmə/Satılma | (1,322) |
| **31 dekabr 2010** | **15,025** |
| | |
| **Xalis qalıq dəyəri** | |
| **31 dekabr 2009** | **6,583** |
| **31 dekabr 2010** | **7,626** |

2010-cı ilin silinmələrində 1,322 AZN sıfır dəyəri ilə müddəti bitmiş qeyri-maddi aktiv aiddir. (31 dekabr 2009: 0 AZN)

## 13 Digər Maliyyə Aktivləri

| *Azərbaycan Manatı ilə* | 2010 | 2009 |
|---|---|---|
| Ödəniş sistemləri üzrə operatorlarla hesablaşmalar | 7,181 | 7,228 |
| **Cəmi digər maliyyə aktivləri** | **7,181** | **7,228** |

31 dekabr 2010-cu il tarixində digər maliyyə aktivlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | Ödəniş sistemləri üzrə operatorlarla hesablaşmalar | Ödənilməkdə olan məbləğlər | Yerləşdirilmiş zəmanət depozitləri | Digər | Cəmi |
|---|---|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | | | |
| - 5 ən böyük pul köçürmə şirkəti | - | - | 7,181 | | **7,181** |
| **Cəmi digər maliyyə aktivləri** | - | - | **7,181** | **-** | **7,181** |

31 dekabr 2009-cu il tarixində digər maliyyə aktivlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | Ödəniş sistemləri üzrə operatorlarla hesablaşmalar | Ödənilməkdə olan məbləğlər | Yerləşdirilmiş zəmanət depozitləri | Digər | Cəmi |
|---|---|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | | | |
| - 5 ən böyük pul köçürmə şirkəti | - | - | 7,228 | | **7,228** |
| **Cəmi digər maliyyə aktivləri** | - | - | **7,228** | **-** | **7,228** |

## 14 Digər Aktivlər

| *Azərbaycan Manatı ilə* | **2010** | **2009** |
|---|---|---|
| Binalar, avadanlıqlar üzrə qabaqcadan ödənişlər | 4,007,000 | 944 |
| Qabaqcadan ödənilmiş xərclər | 310 | 1,241 |
| Vestern Union üzrə hesablaşmalar | 5,788 | 25,916 |
| Digər | 11,683 | 2,787 |
| **Cəmi digər aktivlər** | **4,024,781** | **30,888** |
| Cari | 4,024,781 | 30,888 |

31 dekabr 2010-cu il tarixinə 3,980,000 AZN məbləğində qabaqcadan ödənişlər Bankın baş ofis üçün binanın və 27,000 AZN əsas vəsaitin alınması ilə əlaqədar ödənilmiş vəsaitləri əks etdirir. Mülkiyyət hüququnun Banka keçməsindən sonra, yuxarıda qeyd olunan qabaqcadan ödənilmiş məbləğ Bank tərəfindən “Binalar” və“Mebel və avadanlıq” kateqoriyasına təsnifləşdiriləcəkdir.

## 15 Digər Banklara Ödəniləcək Vəsaitlər

| *Azərbaycan Manatı ilə* | **2010** | **2009** |
|---|---|---|
| Digər bankların müxbir hesabları və overnayt depozitləri | - | 401,550 |
| **Cəmi digər banklara ödəniləcək vəsaitlər** | **-** | **401,550** |

31 dekabr 2010 və 31 dekabr 2009-cu il tarixlərində digər banklara ödəniləcək vəsaitlərin balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir.

Digər banklara ödəniləcək vəsaitlərin faiz dərəcələri üzrə təhlili 28 saylı Qeyddə göstərilir.

## 16 Müştəri Hesabları

| *Azərbaycan Manatı ilə* | 2010 | 2009 |
|---|---|---|
| **Dövlət müəssisələri və ictimai təşkilatlar** | **3,147** | **2,374** |
| - Cari/hesablaşma hesabları | 3,147 | 2,374 |
| **Digər hüquqi şəxslər** | **1,871,426** | **1,684,610** |
| - Cari/hesablaşma hesabları | 1,026,569 | 1,183,130 |
| - Müddətli depozitlər | 842,957 | - |
| - Məhdudiyyət qoyulmuş müştəri hesabları | 1,900 | 501,480 |
| **Fiziki şəxslər** | **9,521,866** | **11,929,640** |
| - Cari/tələbli hesablar | 509,553 | 340,377 |
| - Müddətli depozitlər | 9,008,305 | 8,662,623 |
| - Məhdudiyyət qoyulmuş müştəri depozitləri | 4,008 | 2,926,640 |
| **Cəmi müştəri hesabları** | **11,396,439** | **13,616,624** |

Müştəri hesablarının iqtisadi sektorlar üzrə bölgüsü aşağıdakı kimidir:

| | 2010 | | 2009 | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | Məbləğ | % | Məbləğ | % |
| Fiziki şəxslər | 9,521,866 | 83.55% | 11,929,640 | 87.61% |
| Kənd təssərüfatı | 864,098 | 7.58% | 15,687 | 0.12% |
| Ticarət və xidmət | 657,727 | 5.77% | 1,160,432 | 8.52% |
| Sığorta və digər maliyyə xidmətləri | 138,901 | 1.22% | 500,000 | 3.67% |
| Sənaye | 181,965 | 1.60% | 1,869 | 0.01% |
| İnşaat | 26,547 | 0.23% | 4,656 | 0.03% |
| Dövlət müəssisələri və ictimai təşkilatlar | 3,146 | 0.03% | 2,374 | 0.02% |
| Nəqliyyat və rabitə | 320 | 0.00% | 237 | 0.00% |
| Digər | 1,869 | 0.02% | 1,729 | 0.01% |
| **Cəmi müştəri hesabları** | **11,396,439** | **100%** | **13,616,624** | **100%** |

31 dekabr 2010-cu il tarixində Bankın müştəri hesablarında vəsaitlərinin ümumi qalığı 7,568,025 AZN olan 35 müştərisi olmuşdur ki, bu da ümumilikdə cəmi müştəri hesablarının 66%-ni təşkil etmişdir (31 dekabr 2009: Bankın müştəri hesablarında vəsaitlərinin ümumi qalığı 10,010,669AZN olan 35 müştərisi olmuşdur ki, bu da ümumilikdə cəmi müştəri hesablarının 74%-ni təşkil etmişdir).

31 dekabr 2010-cu il tarixinə Bankın müştəri hesablarında əlaqəli tərəflərdən cəlb edilmiş vəsaitlərin qalığı 91,344 AZN (31 dekabr 2009: 7,765 AZN) olmuşdur ki, bu da cəmi müştəri hesablarının 0.8%-ni (31 dekabr 2009: 0.06%) təşkil etmişdir. Müştəri hesablarında əlaqəli tərəflərin vəsaitləri üzrə (31 dekabr 2009: 252 AZN) faiz xərcləri ödənilməmişdir (31 dekabr 2009: 0.01%) .

31 dekabr 2010 və 31 dekabr 2009-cu il tarixlərində müştəri hesablarının hər bir kateqoriyasının balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2010-cu il tarixində müştəri hesablarının təxmin edilən ədalətli dəyəri 11,396,439 AZN (2009: 13,616,624 AZN) təşkil etmişdir.

Müştəri hesablarının faiz dərəcələri üzrə təhlili 28 saylı Qeyddə göstərilir. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat 33 saylı Qeyddə açıqlanır.

## 17 Müddətli Borc Öhdəlikləri

| *Azərbaycan Manatı ilə* | **2010** | **2009** |
|---|---|---|
| **Rezident banklar və digər təşkilatlardan borc götürülmüş vəsaitlər:** | | |
| - Azərbaycan Respublikası Mərkəzi Bankı ("ARMB") | 12,700,000 | 9,400,000 |
| - Bank Silk Vey ASC | 4,415,000 | - |
| - Paşabank ASC | 1,278,740 | 803,100 |
| - Turan Bank ASC | 319,160 | - |
| - Azərbaycan Beynəlxalq Bankı | 75,874 | 80,310 |
| - VTB Azərbaycan ASC | - | 500,000 |
| - Sahibkarlığa Kömək Milli Fondu | 18,717,763 | 12,818,396 |
| - Sığorta Təşkilatları | 4,827,900 | 2,275,605 |
| - Kənd Təsərrüfatı kreditləri üzrə Dövlət Agentliyi | 1,665,000 | 670,000 |
| - Azərbaycan Respublikası İpoteka Fondu | 424,675 | - |
| Hesablanmış ödəniləcək faizlər | 134,889 | 40,595 |
| **Cəmi müddətli borc öhdəlikləri** | **44,559,001** | **26,588,006** |

ARMB-dən borc götürülmüş 12,700,000 AZN məbləğindən 7,000,000 AZN (2009: 9,400,000 AZN) məbləğində vəsaitlər 2009-cu ildə alınmış borc vəsaitlərini və 2010-cu ildə ARMB tərəfindən ayrılmış 5,400,000 AZN məbləğində borc öhdəliyinin qalığını əks etdirir. 2010-cu ildə alınmış borc öhdəliyinin müqavilə üzrə illik faiz dərəcəsi 2.0% - 2.50% olmaqla, ödəmə müddəti 2011-2012- ci illər ərzində başa çatır. ARMB-dən borc götürülmüş vəsaitlər üzrə Bankın riayət etməli olduğu hər hansı xüsusi şərt mövcud deyil.

12 iyun 2006-cı il tarixində Bankla Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi yanında "Sahibkarlığa Kömək Milli Fondu" arasında kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi məqsədilə kredit xəttinin açılmasına dair saziş imzalanmışdır. Bu proqram çərçivəsində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Banka illik 1.0% faiz dərəcəsilə kredit vəsaitləri təqdim edilmişdir. Bank həmin vəsaitləri illik 6.0% faizdən artıq olmamaq şərtilə müvafiq tələblərə cavab verən borcalanlara verir. Sahibkarlığa Kömək Milli Fondundan borc götürülmüş vəsaitlər üzrə Bankın riayət etməli olduğu hər hansı xüsusi şərt mövcud deyil.

03 aprel 2009-cu il tarixində Bankla Kənd Təsərrüfatı kreditləri üzrə Dövlət Agentliyi arasında kənd təsərrüfatını maliyyələşdirilməsi məqsədilə kreditin verilməsinə dair saziş imzalanmışdır. Bu proqram çərçivəsində Kənd Təsərrüfatı kreditləri üzrə Dövlət Agentliyi tərəfindən Banka illik 2.0% faiz dərəcəsilə kredit vəsaitləri təqdim edilmişdir. Bank həmin vəsaitləri illik 7.0% faizdən artıq olmamaq şərtilə müvafiq tələblərə cavab verən borcalanlara verir. Kənd Təsərrüfatı kreditləri üzrə Dövlət Agentliyindən borc götürülmüş vəsaitlər üzrə Bankın riayət etməli olduğu hər hansı xüsusi şərt mövcud deyil.

21 sentyabr 2010-cu il tarixində Bank ilə Azərbaycan Respublikası Mərkəzi Bankı nəzdində "Azərbaycan İpoteka Fondu" (AİF) arasında fiziki şəxslərə uzunmüddətli ipoteka kreditlərinin verilməsi haqqında kredit sazişi imzalanmışdır. Bu proqram çərçivəsində AİF tərəfindən Banka illik 8.0% faiz dərəcəsilə kredit vəsaitləri təqdim edilmişdir. Bank həmin vəsaitləri illik 8.0% faiz dərəcələri ilə müvafiq tələblərə cavab verən borcalanlara verir. Azərbaycan İpoteka Fondundan borc götürülmüş vəsaitlər üzrə Bankın riayət etməli olduğu hər hansı xüsusi şərt mövcud deyil

"Azərbaycan Beynəlxalq Bankı" -dan borc götürülmüş 75,874 AZN 2007-ci ildə alınmış borc vəsaitinin qalığını əks etdirir. Beynəlxalq Bankı -dən borc götürülmüş vəsaitlər üzrə Bankın riayət etməli olduğu hər hansı xüsusi şərt mövcud deyil.

2010-cu il tarixində Bank ilə "Paşabank ASC" (Azərbaycanda dövlət qeydiyyatından keçmişdir) arasında Bankın kreditləşmə və gündəlik əməliyyatlarının maliyyələşdirilməsi məqsədilə 2011-ci ildə ödənilmək şərtilə 1,278,740 AZN məbləğində üç Kredit Müqaviləsi imzalanmışdır. "Paşabank ASC" -dən borc götürülmüş vəsaitlər üzrə Bankın riayət etməli olduğu hər hansı xüsusi şərt mövcud deyil.

## 17 Müddətli Borc Öhdəlikləri (davamı)

2010-cu il tarixində Bank ilə "Bank Silk Vey" (Azərbaycanda dövlət qeydiyyatından keçmişdir) arasında 2011-ci ildə geri qaytarmaq şərtilə 4,415,000 AZN məbləğində iki depozit müqaviləsi imzalanmışdır. "Bank Silk Vey" -dən borc götürülmüş vəsaitlər üzrə Bankın riayət etməli olduğu hər hansı xüsusi şərt mövcud deyil.

10 avqust 2010-ci il tarixində Bank ilə "TuranBank ASC" arasında Bankın kreditləşmə və gündəlik əməliyyatlarının maliyyələşdirilməsi məqsədilə 10 fevral 2011-ci ildə ödənilmək şərtilə 319,160 AZN məbləğində Kredit Müqaviləsi imzalanmışdır. "TuranBank ASC" -dən borc götürülmüş vəsaitlər üzrə Bankın riayət etməli olduğu hər hansı xüsusi şərt mövcud deyil.

31 dekabr 2010-cu il tarixində Müddətli borc öhdəliklərə altı sıgorta təşkilatlarına illik 6%-16% dərəcəsi ilə yerləşdirilmiş 4,827,900 AZN məbləğində qısamüddətli depozitlər (31 dekabr 2009-cu il tarixinə dörd sığorta təşkilatlarına illik 8%-18% dərəcəsi ilə yerləşdirilmiş ) daxildir.

31 dekabr 2010 və 31 dekabr 2009-cu il tarixlərində Müddətli borc öhdəliklərə hər bir kateqoriyasının balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2010-cu il tarixinə Müddətli borc öhdəliklərə təxmin edilən ədalətli dəyəri 44,559,001 AZN (2009: 26,588,006 AZN) təşkil etmişdir

ARMB-dən borc götürülmüş vəsaitlər istisna olmaqla, 31 dekabr 2010-cu il tarixində tamamlanan il üçün digər bankların borc öhdəlikləri üzrə illik bazar faiz dərəcələri 10%-16% (31 dekabr 2009-cu il tarixində tamamlanan il: illik 7%-15.5%) təşkil etmişdir.

Müddətli borc öhdəliklərinin faiz dərəcələri üzrə təhlili 28 saylı Qeyddə göstərilir.

## 18 Digər Öhdəliklər

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| *Azərbaycan Manatı ilə* | **2010** | **2009** |
|---|---|---|
| İşçilərə ödəniləcək məbləğlər | 30,912 | 27,880 |
| Təxirə salınmış qəlirlər | 89,985 | 82,778 |
| Ödənilməkdə olan məbləglər | 17,210 | 16,059 |
| Müəyən edilməmiş məbləğlər | 505 | 148,634 |
| Verqilər Nazirliyi ilə hesablaşmalar | 42,911 | 931 |
| Digər öhdəliklər | 3,355 | 4,593 |
| **Cəmi digər öhdəliklər** | **184,878** | **280,875** |
| Cari | **184,878** | **280,875** |

## 19 Nizamnamə Kapitalı

31 dekabr 2010 və 31 dekabr 2009 -cu il tarixlərinə Bankın qeydiyatdan keçmiş və ödənilmiş adi səhmlərinin sayı 1,554 və 1,304 olmuş və bu səhmlərin hər birinin nominal dəyəri AZN 10,000 təşkil etmişdir.
Bankın adi səhmlərinin hərəkəti aşağıdakı kimi olmuşdur:

| **Adi səhmlər** | **Élan olunmuş nizamnamə kapitalı** | **Ödənilməmiş nizamnamə kapitalı** | **Cəmi nizamnamə kapitalı** |
|---|---|---|---|
| 1 yanvar 2009-cu il | 15,540,000 | 13,040,000 | 13,040,000 |
| 31 dekabr 2009-cu il | 15,540,000 | 13,040,000 | 13,040,000 |
| **31 dekabr 2010-cu il** | 15,540,000 | 15,540,000 | 15,540,000 |

31 dekabr 2010-cu il tarixində Bankın bütün səhmləri elan edilmiş, buraxılmış və ödənilmişdir.

Azərbaycan Respublikası Mərkəzi Bankının tələblərinə müvafiq olaraq ölkə ərazisində fəaliyyət göstərən kommersiya banklarının minimum nizamnamə kapitalı 1 yanvar 2007-ci il tarixindən etibarən AZN 10 milyon təşkil etməlidir. 31 dekabr 2010-cu il tarixində Bank nizamnamə kapitalı AZN 15,540,000 təşkil etmişdir.

## 20 Faiz Gəlirləri və Xərcləri

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2010-ci il tarixində tamamlanan il üzrə** | **31 dekabr2 009-cı il tarixində tamamlanan il üzrə** |
|---|---|---|
| **Faiz gəlirləri aşağıdakılardan ibarətdir:** | | |
| Amortizasiya olunmuş maya dəyərində aktivlər üzrə faiz gəliri: | | |
| - mümkün zərərlər üzrə ehtiyat ayrılmış aktivlər üzrə faiz gəlirləri | 6,310,710 | 4,672,318 |
| **Cəmi faiz gəlirləri** | **6,310,710** | **4,672,318** |
| Amortizasiya olunmuş maya dəyərində aktivlər üzrə faiz gəliri aşağıdakılardan ibarətdir: | | |
| Müştəri kreditləri üzrə faiz gəlirləri | 6,303,710 | 4,672,318 |
| Banklarda və diqər maliyyə institutlarda yerləşdirilmiş vəsaitlər üzrə faiz gəlirləri | 7,000 | - |
| Amortizasiya olunmuş maya dəyərində aktivlər üzrə cəmi faiz gəliri | **6,310,710** | **4,672,318** |
| **Faiz xərcləri aşağıdakılardan ibarətdir:** | | |
| Amortizasiya olunmuş maya dəyərində passivlər üzrə faiz xərcləri | (3,230,840) | (2,575,851) |
| **Cəmi faiz xərcləri** | **(3,230,840)** | **(2,575,851)** |
| Amortizasiya olunmuş maya dəyərində öhdəliklər üzrə faiz xərcləri aşağıdakılardan ibarətdir: | | |
| Banklardan və diqər maliyyə institutlardan alınmış vəsaitlər üzrə faiz xərcləri | (1,568,218) | (1,174,876) |
| Müştəri hesabları üzrə faiz xərcləri | (1,662,622) | (1,400,975) |
| Digər faiz xərcləri | - | - |
| Amortizasiya olunmuş maya dəyərində öhdəliklər üzrə cəmi faiz xərcləri | **(3,230,840)** | **(2,575,851)** |
| **Kreditlər üzrə ehtimal edilən zərərlədən əvvəl faiz gəliri** | **3,079,870** | **2,096,467** |

33 saylı Qeyddə açıqlandığı kimi, 31 dekabr 2010-cu il tarixinə Bankın müştəri hesablarında əlaqəli tərəflərdən cəlb edilmiş vəsaitlərin qalığı 91,344 AZN (31 dekabr 2009: 7,765 AZN) olmuşdur ki, bu da cəmi müştəri hesablarının 0.8%-ni (31 dekabr 2009: 0,06%) təşkil etmişdir. Müştəri hesablarında əlaqəli tərəflərin vəsaitləri üzrə (31 dekabr 2009: 252 AZN) faiz xərcləri ödənilməmişdir (31 dekabr 2009: 0,01%) .

## 21 Xarici Valyuta İlə Əməliyyatlar Üzrə Gəlirlər

Xarici valyuta ilə əməliyyatlar üzrə gəlirlər – zərər çıxılmaqla aşağıdakı şəkildə olmuşdur:

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2010-cu il tarixində tamamlanan il üzrə** | **31 dekabr 2009-ci il tarixində tamamlanan il üzrə** |
|---|---|---|
| Dilinq əməliyyatları, xalis | 57,341 | 7,959 |
| Valyuta balanslarının yendən qiymətləndirilməsi, xalis | (179,894) | 84,268 |
| **Cəmi xarici valyuta ilə əməliyyatlar üzrə gəlirlər – zərər çıxılmaqla** | **(122,553)** | **92,227** |

## 22 Haqq və Komissiya Gəlirləri və Xərcləri

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2010-cu il tarixində tamamlanan il üzrə** | **31 dekabr 2009-ci il tarixində tamamlanan il üzrə** |
|---|---|---|
| **Haqq və komissiya gəlirləri:** | | |
| Hesablaşma əməliyyatları üzrə | 106,121 | 524,576 |
| Nəğd pul əməliyyatları üzrə | 270,781 | 289,455 |
| Kreditin yaranma və xidmət xərci | 4,611 | 32,753 |
| Xarici valyuta əməliyyatları | 32,588 | 21,692 |
| Qarantiya məktubları | 33,616 | 23,988 |
| Plastik kartlarla əməliyyatlar üzrə | 22,717 | 21,194 |
| Digər əməliyyatlar | 6,086 | 1,171 |
| **Cəmi haqq və komissiya gəlirləri** | **476,520** | **914,829** |
| **Haqq və komissiya xərcləri:** | | |
| Hesablaşma əməliyyatları üzrə | (12,415) | (17,022) |
| Plastik kartlarla əməliyyatlar üzrə | (16,878) | (14,318) |
| Nəğd pul əməliyyatları üzrə | (931) | (3,383) |
| Qarantiyalar | - | (149) |
| Digər əməliyyatlar | (4,684) | (11,505) |
| **Cəmi haqq və komissiya xərcləri** | **(34,908)** | **(46,377)** |

## 23 Digər Gəlirlər

Digər gəlirlər aşağıdakılardan ibarətdir:

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2010-cu il tarixində tamamlanan il üzrə** | **31 dekabr 2009-ci il tarixində tamamlanan il üzrə** |
|---|---|---|
| Əsas vəsaitlərin satişindan gəlir | 234,535 | -. |
| Digər gəlirlər | 3,316 | 193 |
| **Digər gəlirlərin cəmi** | **237,851** | **193** |

## 24 Əməliyyat Xərcləri

| *Azərbaycan manatı ilə* | 2010 | 2009 |
|---|---|---|
| İşçilərə sərf olunan xərclər | 596,401 | 556,489 |
| Amortizasiya xərcləri | 170,224 | 216,086 |
| Sosial Müdafiə Fonduna ödənişlər | 130,409 | 116,558 |
| Rabitə xərcləri | 118,360 | 101,898 |
| Mühafizə xərcləri | 103,660 | 93,313 |
| Plastik kartlarla əməliyyatlar üzrə | 39,874 | 23,351 |
| Vergilər, mənfəət vergisindən başqa | 34,136 | 39,834 |
| Peşəkar xidmətlər | 30,740 | 68,126 |
| Kommunal xidmətlər üzrə xərclər | 25,720 | 25,962 |
| İcarə xərcləri | 24,542 | 32,428 |
| Yardım | 20,000 | 40,000 |
| Nəşriyyat və dəftərxana xərcləri | 10,271 | 16,853 |
| Üzvlük haqları | 2,000 | 12,500 |
| Bina və avadanlıqların təmir və saxlama xərcləri | 6,415 | 8,644 |
| Reklam və marketinq | 142 | 1,886 |
| Digər əməliyyat xərcləri | 43,948 | 14,858 |
| **Cəmi** | **1,356,842** | **1,368,786** |

## 25 Mənfəət Vergisi

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

| *Azərbaycan Manatı ilə* | 31 dekabr 2010 | 31 dekabr 2009 |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər**: | | |
| Bina və avadanlıqlar | 50,885 | 151,850 |
| Digər hesablar | 726 | - |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **51,611** | **151,850** |
| | **31 dekabr 2010** | **31 dekabr 2009** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər**: | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 90,581 | - |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | | **-** |
| Xalis vergi bazasını artıran (azaldan) fərqlər | (38,970) | 151,850 |
| Xalis vergi aktivi (öhdəliyi) mənfəət vergisi faizi ilə (22%, 01.01.2010 tarixindən etibarən 20%) | (7,794) | 30,370 |

31 dekabr 2010-cu və 31 dekabr 2009-ci il tarixilərinə olan vergilər üzrə xərclərin və mühasibat mənfəətinin arasındakı mövcud olan münasibət aşağıda açıqlanıb:

| *Azərbaycan Manatı ilə* | 31 dekabr 2010 | 31 dekabr 2009 |
|---|---|---|
| Vergidən əvvəlki mənfəət | 395,962 | 73,731 |
| Vergi tarifi | 20% | 22% |
| Qanunla müəyyən olunmuş vergi dərəcəsinə əsasən hesablanmış mənfəət vergisi | 79,192 | 16,221 |
| Gəlirdən çıxılmayan xərclər | 4,076 | (15,290) |
| 3 illik vergidən azadolma effekti | - | (61,170) |
| **İl üzrə mənfəət vergisi** | **83,268** | **(60,239)** |
| Cari mənfəət vergisi xərci | 45,104 | 931 |
| Təxirə salınmış vergi öhdəliklərində dəyişikliklər | 38,164 | (61,170) |
| **İl üzrə mənfəət vergisi** | **83,268** | **(60,239)** |

| **Təxirə salınmış vergi (öhdəliyi) /aktivi** | **31 dekabr 2010** | **31 dekabr 2009** |
|---|---|---|
| **İlin əvvəlində** | **30,370** | **(30,800)** |
| Təxirə salinmiş vergi öhdəliklərində azalmalar | (38,164) | 61,170 |
| **İlin sonunda** | **(7,794)** | **30,370** |

## 25 Mənfəət Vergisi (davamı)

Bankın mənfəətinə 20% (2009: 22%) dərəcəsində mənfəət vergisi hesablanmışdır. 19 iyun 2010-cu il tarixində Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 1 yanvar 2010-cu il tarixindən etibarən Azərbaycan Respublikasında mənfəət vergisi dərəcəsi 22%-dən 20%-ə endirilmişdir.

BMHS və Azərbaycanın vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir.

## 26 Səhm Üzrə Mənfəət

Səhm üzrə əsas mənfəət, pay səhmləri istisna olmaqla, Bankın səhmdarlarına aid olan xalis mənfəəti və ya zərəri il ərzində dövriyyədə olan adi səhmlərin orta sayına bölməklə hesablanır.

Bank səhm üzrə mənfəətin azaldılması effektinə malik olan potensial adi səhmlərə malik deyil. Buna görə, səhm üzrə azaldılmış mənfəətin məbləği səhm üzrə əsas mənfəətin məbləğinə bərabərdir.

| *Səhmlərin sayı istisna olmaqla, Azərbaycan Manatı ilə* | **Qeyd** | **2010** | **2009** |
|---|---|---|---|
| İl üzrə adi səhmlərin sahiblərinə aid olan mənfəət/(zərər) | | 312,694 | 133,970 |
| Dövriyyədə olan adi səhmlərin orta sayı ( ədədlə) | 19 | 1,554 | 1,304 |
| **Adi səhm üzrə əsas (zərər)/mənfəət (bir səhm üzrə AZN ilə)** | | **201.21** | **102.74** |

## 27 Seqmentlər Üzrə Təhlil

1 yanvar 2010-cu il tarixindən etibarən Bank seqmentlər üzrə təhlili BMS 14 *"Seqment hesabatı"* Standartını əvəz etmiş BMHS 8 *"Əməliyyat seqmentləri"* Standartına əsasən hazırlayır.

Rəhbərliyin BMHS 8-ə yanaşmasına uyğun olaraq, əməliyyat seqmentləri resursların hesabat seqmentlərinə bölüşdürülməsi və Bankın fəaliyyətinin qiymətləndirilməsi üçün məsuliyyət daşıyan tərəf olan İdarə Heyətinə (əməliyyat məsələləri ilə bağlı əsas qərarları qəbul edən) təqdim edilmiş daxili hesabatlara əsasən hazırlanır. Bankın istiffadə etdiyi bütün əməliyyat seqmentləri BMHS 8-də nəzərdə tutulan hesabat seqmenti anlayışına uyğundur.

Bankın fəaliyyəti aşağıdakı əməliyyat seqmentləri üzərində qurulmuşdur:

- Fərdi bank əməliyyatları – fiziki şəxslərə bank xidmətlərinin göstərilməsi, fiziki şəxslər üçün cari hesabların açılması, depozitlərin cəlb edilməsi, pərakəndə investisiya vasitələrinin təqdim edilməsi, dəyərlilərin saxlanması, kredit və debet kartlarının açılması, istehlak və ipoteka kreditlərinin verilməsi.

- Korporativ bank əməliyyatları – müəssisələrin hesablaşma və cari hesabları üzrə xidmətlərin göstərilməsi, depozitlərin qəbul edilməsi, overdraft şəklində kredit vəsaitlərinin təqdim edilməsi, kreditlərin və digər maliyyələşdirmə vəsaitlərinin təqdim edilməsi, xarici valyuta və derivativ maliyyə alətləri üzrə əməliyyatlar.

## 27 Seqmentlər Üzrə Təhlil (davamı)

İdarə Heyəti yerli uçot qaydaları və daxili hesabatların tələblərinə uyğun hazırlanmış maliyyə məlumatlarını təhlil edir. Həmin maliyyə məlumatları müəyyən aspektlərdə Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun şəkildə hazırlanmış məlumatlardan fərqlənir:

(i) satıla bilən investisiya qiymətli kağızlarının ədalətli dəyərindəki dəyişikliklər digər məcmu gəlirlər kimi əks etdirilir;

(ii) resurslar adətən əməliyyat departamentinin müəyyən etdiyi daxili faiz dərəcələrindən istifadə edilməklə seqmentlər arasında yenidən bölüşdürülür. Həmin faiz dərəcələri əsas bazar faiz dərəcələrinə, müqavilədə nəzərdə tutulan kreditlərin ödəmə müddətlərinə və müştəri hesablarındakı qalıqların müşahidə edilən faktiki ödəmə müddətlərinə əsasən müəyyən edilir;

(iii) mənfəət vergisi seqmentlər üzrə bölüşdürülmür;

(iv) kreditlər üzrə ehtiyatlar BMS 39-da nəzərdə tutulan "baş vermiş zərərlər" modelinə əsasən deyil, rəhbərliyin peşəkar mülahizələrinə və məlumatların mövcudluğuna əsasən uçota alınır;

31 dekabr 2010 və 2009-cu il tarixlərində tamamlanan illər üzrə Bankın əsas hesabat seqmentləri haqqında məlumat aşağıda təqdim edilir:

31 dekabr 2010 cu il tarixinə

| | **Qeyd** | **"Korporativ bankçılıq"** | **"Fərdi bankçılıq"** | **"Bölüşdürülməmiş xidmətlər"** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **Xalis gəlir** | | | | | |
| Xalis faiz gəliri | | 196,535 | 999,359 | - | 1,195,894 |
| Xalis komissiya gəliri | | 192,805 | 248,807 | - | 441,612 |
| Digər əməliyyat gəliri | | 23,848 | (145,955) | 237,405 | 115,298 |
| **Cəmi segment gəliri** | | 413,188 | 1,102,211 | 237,405 | 1,752,804 |
| Əməliyyat xərcləri | | (620,943) | (549,241) | (186,658) | (1,356,842) |
| Gəlir vergisi üzrə xərclər | | | | (83,268) | (83,268) |
| **Dövriyyənin mənfəəti** | | | | | 312,694 |
| Segmentin aktivləri | | 32,197,041 | 30,831,454 | 10,037,471 | 73,065,966 |
| Bölüşdürülməmiş aktivlər | | | | | |
| **Cəmi aktivlər** | | **32,197,041** | **30,831,454** | **10,037,471** | **73,065,966** |
| Segmentin öhdəlikləri | | 46,437,582 | 9,517,858 | 192,672 | 56,148,112 |
| Bölüşdürülməmiş öhdəliklər | | | | | |
| **Cəmi öhdəliklər** | | 46,437,582 | 9,517,858 | 192,672 | **56,148,112** |
| Maliyyə aktivləri üzrə ehtimal olnunan zərər | | | | (1,883,976) | (1,883,976) |
| Köhnəlmə və amortizasiya | | | | (170,224) | (170,224) |

## 27 Seqmentlər Üzrə Təhlil (davamı)

31 dekabr 2009-cu il tarixinə

| | Qeyd | "Korporativ bankçılıq" | "Fərdi bankçılıq" | "Bölüşdürülməmiş xidmətlər" | Cəmi |
|---|---|---|---|---|---|
| **Xaric gəlir** | | | | | |
| Xalis faiz gəliri | | (156,920) | 638,565 | - | 481,645 |
| Xalis komissiya gəliri | | 307,112 | 561,340 | - | 868,452 |
| Digər əməliyyat gəliri | | 32,614 | 59,613 | 193 | 92,420 |
| **Cəmi segment gəliri** | | 182,806 | 1,259,518 | 193 | 1,442,517 |
| | | | | | |
| Segmentin nəticələri | | (173,463) | (1,195,140) | (183) | (1,368,786) |
| Gəlir vergisi üzrə xərclər | | - | - | 60,239 | 60,239 |
| **Dövriyyənin mənfəəti** | | - | - | - | 133,970 |
| | | | | | |
| Segmentin aktivləri | | 29,477,668 | 16,287,584 | 9,226,963 | 54,992,215 |
| Bölüşdürülməmiş aktivlər | | - | - | - | - |
| **Cəmi aktivlər** | | **29,477,668** | **16,287,584** | **9,226,963** | **54,992,215** |
| | | | | | |
| Segmentin öhdəlikləri | | 31,634,067 | 8,975,409 | 277,580 | 40,887,056 |
| Bölüşdürülməmiş öhdəliklər | | - | - | - | - |
| **Cəmi öhdəliklər** | | **31,634,067** | **8,975,409** | **277,580** | **40,887,056** |
| | | | | | |
| Maliyyə aktivləri üzrə ehtimal olnunan zərər | | - | - | (1,614,821) | (1,614,821) |
| Köhnəlmə və amortizasiya | | - | - | (216,086) | (216,086) |

## 28 Maliyyə Risklərinin Idarə Edilməsi

Bank daxilində risklərin idarə edilməsi maliyyə riskləri (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Kredit riski.*** Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəf öz öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurduqda, Bank kredit riskinə məruz qalır. Kredit riski Bankın qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır.
Bundan əlavə, Azərbaycan Respublikası Mərkəzi Bankı ölkədə fəaliyyət göstərən bütün maliyyə institutları tərəfindən riayət edilməsi məcburi hesab olunan bəzi limitlər müəyyən edir və bu limitlərə müntəzəm olaraq nəzarət edir. Qəbul edilə bilən risk səviyyəsi üzrə limitlərə faktiki olaraq hər gün nəzarət edilir. Bank tərəfindən aşağıdakı limitlər tətbiq edilir:

(1) bir borcalanın və ya bir-biri ilə əlaqədar borcalanlar Bankına verilmiş kreditlərin məbləği aşağıdakı normalardan çox olmamalıdır:

(i) kredit tələblərinin təminatının bazar dəyəri bu kredit tələbinin məbləğinin 100 faizindən və daşınmaz əmlakla təmin olunmuş kreditlər üzrə girovun bazar dəyəri150 faizindən az olmadığı halda Bankın məcmu kapitalının 20 faizindən; və

(ii) kredit tələblərinin təminatının bazar dəyəri bu kredit tələblərinin məbləğinin 100 faizindən faizindən və daşınmaz əmlakla təmin olunmuş kreditlər üzrə girovun bazar dəyəri 150 faizindən az olduğu halda Bankın məcmu kapitalının 7 faizindən;

(2) bütün iri kredit tələblərinin ümumi məbləği məcmu kapitalının 8 mislindən çox olmamalıdır;

(3) Əlaqəli tərəflərə verilmiş kredit tələblərinin məbləği aşağıdakı normalardan çox olmamalıdır:

**28 Maliyyə Risklərinin Idarə Edilməsi (davamı)**

(i) Bankın məcmu kapitalının 20 faizindən; və

(ii) Onlar hüquqi şəxs olduqda Bankın məcmu kapitalının 10 faizindən; və ya

(iii) Onlar fiziki şəxs olduqda Bankın məcmu kapitalının 3 faizindən.

Bu əmsallar, Bankın yerli standartlara uyğun hazırlanmış maliyyə hesablarından çıxarılan rəqəmlər əsasında hesablanır.

Risklərin İdarə Edilməsi Departamenti hər rüb ARMB-nin limitlərindən başqa limitlər müəyyən edir və onları nəzərdən keçirir. Bazar şərtlərində əhəmiyyətli dəyişikliklər baş verdiyi təqdirdə həmin limitlərə yenidən baxıla bilər. Limitlərin dəyişməsi ilə bağlı təklif əvvəlcə Kredit Komitəsi, sonra isə İdarə Heyəti tərəfindən təsdiqlənir.

Kredit Departamenti müntəzəm olaraq bütün limitlərin qorunub saxlanmasını təmin edir və bəzi limitlərə (bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar Bankına verilmiş kreditlərin maksimum məbləği və əlaqəli tərəflərə verilmiş kreditlərin maksimum məbləği) yeni kreditlərin verilməsindən əvvəl nəzarət edir.

Bankın kredit siyasəti kreditlərin verilməsi prosesinə cəlb olunan Bankın hər bir əməkdaşının vəzifə və səlahiyyətlərini tənzimləyir, eləcə də kreditlərin verilməsi limitlərini, kreditlərə nəzarət qaydalarını, kreditlərin verilməsi prosedurlarını müəyyən edir.

***Kreditin təsdiqlənməsi proseduru və səlahiyyətlərin müəyyən edilməsi.*** Kreditin təsdiqlənməsi prosesi Bankın Kredit Siyasətində nəzərdə tutulan prosedurlara uyğun olaraq həyata keçirilir. Kreditin təsdiqlənməsi səlahiyyətləri Bankın Müşahidə Şurası tərəfindən təsdiqlənmiş limitlər çərçivəsində müəyyən edilir.

***Kreditlərin təsdiqlənməsi üzrə səlahiyyətlər.*** Müşahidə Şurası 200,000 AZN-dən yuxarı kredit limitlərini təhlil edərək təsdiqləyir.

Kredit Komitəsi 30,000-200,000 AZN -dək olan kredit limitlərini təhlil edərək təsdiqləyir.

Kredit Departamenti 30,000 AZN –dək olan kredit limitlərini təhlil edərək təsdiqləyir.

Kreditlərin verilməsindən əvvəl Bank, potensial borcalanların ətraflı qiymətləndirilməsini aparır. Bu təhlil potensial borcalanın maliyyə vəziyyətinə, bazardakı mövqeyinə, kreditin təminatı üçün qoyulmuş girovun növünə və dəyərinə, eləcə də kredit tarixçəsinə əsaslanır.

Kreditlər üzrə monitorinq borcalanın reytinqini nəzərə alaraq, kreditin ümumi müddəti ərzində müntəzəm şəkildə aparılır. Bir çox hallarda planlaşdırılmış monitorinq hər rüb aparılır. Bunun üçün borcalana əvvəlcədən 10 gün ərzində bildiriş göndərilir. Borcalan krediti ödəyə bilmədiyi təqdirdə 30 gün ərzində ikinci bildiriş göndərilir. Kreditlərin böyük hissəsi üzrə faiz ödənişləri hər ay aparıldığına görə, bu Banka borcalanın maliyyə vəziyyətinə dair əlavə məlumat əldə etmək imkanı verir. Ödənişlərin vaxtı gecikdirildiyi halda, Problemli Kreditlər Şöbəsi tərəfindən əlavə monitorinq keçirilir. Həmin Şöbə Bankın aktivlərinin təhlükəsizliyi və mümkün kredit riskləri və zərərlərin azaldılmasını təmin etmək məqsədilə, bütün kredit növləri üzrə monitorinq aparır və monitorinqin nəticələrinə dair xüsusi hesabat hazırlayaraq onu Bankın Kredit Komitəsinə təqdim edir. Kreditlərin böyük hissəsi üçün zəmanətlər və müxtəlif girov növləri (daşınmaz əmlak, əsas vəsaitlər, dövriyyədə olan mallar, və s.) şəklində təminat alınır.

Girovun qiymətləndirilməsi müstəqil peşəkar şirkətlər və girovun növü və verilmiş kreditin məbləğindən asılı olaraq Bankın peşəkar əməkdaşları tərəfindən aparılır.

Balansdankənar maliyyə alətləri üzrə kredit riski həmin maliyyə aləti üzrə əməliyyatların digər iştirakçısı tərəfindən müqavilə üzrə öz öhdəliklərini yerinə yetirə bilməməsi nəticəsində zərərin yaranması ehtimalı kimi müəyyən edilir. Bank şərti öhdəlikləri və balans üzrə maliyyə alətləri ilə əlaqədar əməliyyatların təsdiqlənməsi prosedurları, riskləri məhdudlaşdıran limitlərdən istifadə və monitorinq prosedurlarına əsaslanan eyni kredit siyasətini tətbiq edir.

## 28 Maliyyə Risklərinin Idarə Edilməsi (davamı)

***Kredit riskinin maksimum səviyyəsi.*** Bankın balans üzrə məruz qaldığı kredit riskinin maksimal səviyyəsi, adətən balans hesabatında maliyyə aktivlərinin balans dəyərində əks olunur. Potensial kredit riskinin azaldılması üçün aktiv və öhdəliklərin əvəzləşdirilməsi imkanı böyük əhəmiyyət kəsb etmir.

Balansdankənar maddələr, xüsusilə zəmanətlər üzrə kredit riskinin maksimal səviyyəsi öhdəliyin ümumi məbləğini əks etdirir. Bankın balansdankənar maddələr üzrə kredit riski 29 saylı "Şərti Öhdəliklər" Qeydində açıqlanır.

Balansdankənar maliyyə alətləri üzrə kredit riski həmin maliyyə aləti üzrə əməliyyatların digər iştirakçısı tərəfindən müqavilə üzrə öz öhdəliklərini yerinə yetirə bilməməsi nəticəsində zərərin yaranması ehtimalı kimi müəyyən edilir. Bank şərti öhdəlikləri və balans üzrə maliyyə alətləri ilə əlaqədar əməliyyatların təsdiqlənməsi prosedurları, riskləri məhdudlaşdıran limitlərdən istifadə və monitorinq prosedurlarına əsaslanan eyni kredit siyasətini tətbiq edir.

| | **Maksimum risk** | **Əvəzləşdirmə** | **Əvəzləşdirmədən sonra xalis risk** | **Alınmış girovlar** | **31 dekabr 2010 Əvəzləşdirmədən və alınmış girovlardan sonra xalis risk** |
|---|---|---|---|---|---|
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | 91,002 | - | 91,002 | - | **91,002** |
| Müştərilərə verilmiş kreditlər | 62,871,695 | - | 62,871,695 | 51,154,130 | **11,717,565** |
| Digər maliyyə aktivi | 7,181 | - | 7,181 | - | **7,181** |

| | **Maksimum risk** | **Əvəzləşdirmə** | **Əvəzləşdirmədən sonra xalis risk** | **Alınmış girovlar** | **31 dekabr 2009 Əvəzləşdirmədən və alınmış girovlar dan sonra xalis risk** |
|---|---|---|---|---|---|
| Digər banklar və maliyyə institutlarından alınacaq | 75,863 | - | 75,863 | - | **75,863** |
| Müştərilərə verilmiş kreditlər | 44,275,104 | - | 44,275,104 | 25,635,790 | **18,639,314** |
| Digər maliyyə aktivi | 7,228 | - | 7,228 | - | **7,228** |

Bank sektoru əsasən kredit risklərinə, mövcud maliyyə alətləri və şərti öhdəlikləri vasitəsilə məruz qalır. Bankın kredit riskləri əsasən Azərbaycan Respublikasında cəmlənmişdir. Bu risklərin, Bankın risklərin idarə edilməsi üzrə siyasətində göstərilən kredit limitləri ilə əlaqədar müddəaların pozulmamasından əmin olmaq məqsədilə mütəmadi olaraq monitorinq keçirilir.

***Bazar riski.*** Bank bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. İdarə Heyəti qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Buna baxmayaraq, bu cür yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

## 28 Maliyyə Risklərinin Idarə Edilməsi (davamı)

**Xarici valyuta riski.** Xarici valyuta riski xarici valyuta dəyişikliklərinin maliyyə instrumentlərinin dəyərinə təsiri şəklində başa düşülür. Bank xarici valyuta məzənnə dəyişikliyinin maliyyə vəziyyətinə və pul vəsaitlərinin dövriyyəsinin vəziyyətinə yaradacağı enib qalxma təsirinə məruz qalır.

Hesabat dövrünün sonunda Bankın məruz qaldığı valyuta riski üzrə ümumi təhlil aşağıdakı cədvəldə əks olunur:

| | AZN | USD | EUR | GBP | RUR | 31 dekabr 2010 cəmii |
|---|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2,992,129 | 383,973 | 3,348 | 50 | 1,817 | 3,381,317 |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | - | 60,625 | 17,532 | - | 12,845 | 91,002 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 58,655,787 | 3,911,833 | 304,075 | - | - | 62,871,695 |
| Qiymətli kağızlar | 156,800 | - | - | - | - | 156,800 |
| Binalar və avadanlıqlar | 2,525,564 | - | - | - | - | 2,525,564 |
| Qeyri-maddi aktivlər | 7,626 | - | - | - | - | 7,626 |
| Digər maliyyə aktivləri | - | 7,181 | - | - | - | 7,181 |
| Digər aktivlər | 4,018,190 | 6,591 | - | - | - | 4,024,781 |
| **CƏMİ AKTİVLƏR** | **68,356,096** | **4,370,203** | **324,955** | **50** | **14,662** | **73,065,966** |
| **ÖHDƏLİKLƏR** | | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | | | | | | |
| Müştəri hesabları | 6,727,389 | 4,171,752 | 490,938 | 6,341 | 19 | 11,396,439 |
| Müddətli borc öhdəlikləri | 42,865,273 | 1,693,728 | - | - | - | 44,559,001 |
| Təxirə salinmiş vergi öhdəliyi | 7,794 | - | - | - | - | 7,794 |
| Digər öhdəliklər | 179,198 | 4,269 | 848 | - | 563 | 184,878 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **49,779,654** | **5,869,749** | **491,786** | **6,341** | **582** | **56,148,112** |
| **AÇIQ BALANS VƏZİYYƏTİ** | **18,576,442** | **(1,499,546)** | **(166,831)** | **(6,291)** | **14,080** | |

**28 Maliyyə Risklərinin Idarə Edilməsi (davamı)**

| | AZN | USD | EUR | GBP | RUR | 31 dekabr 2009 cəmi |
|---|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 3,685,820 | 3,037,842 | 12,491 | 77 | 799 | 6,737,029 |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | - | 50,633 | 25,206 | - | 24 | 75,863 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 40,486,410 | 1,582,370 | 2,206,324 | - | - | 44,275,104 |
| Təxirə salınmış vergi aktivi | 30,370 | - | - | - | - | 30,370 |
| Qiymətli kağızlar | 156,800 | - | - | - | - | 156,800 |
| Binalar və avadanlıqlar | 3,672,350 | - | - | - | - | 3,672,350 |
| Qeyri-maddi aktivlər | 6,583 | - | - | - | - | 6,583 |
| Digər maliyyə aktivləri | - | 7,228 | - | - | - | 7,228 |
| Digər aktivləri | 26,028 | 4,860 | - | - | - | 30,888 |
| **CƏMİ AKTİVLƏR** | **48,064,361** | **4,682,933** | **2,244,021** | **77** | **823** | **54,992,215** |
| **ÖHDƏLİKLƏR** | | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | | 401,550 | - | - | - | 401,550 |
| Müştəri hesabları | 8,843,543 | 3,943,938 | 823,229 | 5,897 | 17 | 13,616,624 |
| Müddətli borc öhdəlikləri | 25,239,806 | 1,348,200 | - | - | - | 26,588,006 |
| Digər öhdəliklər | 271,561 | 9,314 | - | - | - | 280,875 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **34,354,910** | **5,703,002** | **823,229** | **5,897** | **17** | **40,887,055** |
| **AÇIQ BALANS VƏZİYYƏTİ** | **13,709,451** | **(1,020,069)** | **1,420,792** | **(5,820)** | **806** | |

**Valyuta riski həssaslığı.**
Kommersiya bank əməliyyatlarından yaranan xarici valyuta riskinə Bankın Əməliyyat Departamenti tərəfindən hər gün nəzarət olunur və bu risklər aşağıdakı qaydada idarə edilir:

i. Hər bir xarici valyuta üzrə ARMB-nin müəyyən etdiyi açıq valyuta mövqeyi limitlərinin saxlanması;
ii. Hər bir valyuta üzrə xarici valyuta mövqeyinin səviyyəsi və bu valyutaların müvafiq likvidlik səviyyəsi arasında qarşılıqlı əlaqənin monitorinqi;

iii. Xüsusilə ABŞ dolları, Avro və AZN kimi xarici valyuta məzənnələrindəki dəyişkənlik meyllərinin proqnozlaşdırılması; və

iv. İxrac-idxal əməliyyatları ilə məşğul olan Bankın iri müştərilərinin fəaliyyəti və bank əməliyyatlarının təhlil edilməsi.

Həssaslıq analizləri, xarici əməliyyatlara borc verənin nominal valyutasından başqa valyutalarda verilən kreditləri də əhatə edir. Aşağıdakı cədvəl Bankın ABŞ dolları-nin AZN qarşısında 2%*(31 dekabr 2009: 10%)* və EUR-sunun AZN qarşısında 10% *(31 dekabr 2009: 10%)* artıb-azalma həssaslığını göstərir. Həssaslıq dərəcəsi xarici valyuta riski haqqında hesabatı daxili yuxarı rəhbərliyə təqdim edərkən istifadə olunur və rəhbərliyin xarici valyuta mübadiləsi dərəcələrinə qiymətləndirməsini özündə əks etdirir. Həssaslıq analizinə yalnız balansda qalan xarici valyutada olan maliyyə vəsaitləri daxildir. Maliyyə dövrünün sonunda bu vəsaitlərinin valyuta mübadilə məzənnəsindəki 2-10 % artıb-azalma fərqi ilə cevrilmə düzəlişi arasındakı fərq nəzərə alınaraq hesablamalar həyata keçirilir.

**28 Maliyyə Risklərinin Idarə Edilməsi (davamı)**

Bütün digər dəyişənlərin sabit qalması şərtilə, hesabat dövrünün sonunda tətbiq edilən valyuta məzənnələrindəki mümkün dəyişikliklər nəticəsində mənfəət/zərər və kapitalda dəyişikliklər aşağıdakı cədvəldə əks etdirilir:

| | 31 dekabr 2010-ci il tarixinə | | 31 dekabr 2009-ci il tarixinə | |
|---|---|---|---|---|
| | AZN/USD +2% | AZN/USD -2% | AZN/USD +10% | AZN/USD -10% |
| Mənfəət və zərərə təsiri | 83,869 | (83,869) | 102,007 | (102,007) |

| | 31 dekabr 2010-ci il tarixinə | | 31 dekabr 2009-ci il tarixinə | |
|---|---|---|---|---|
| | AZN/EUR +10% | AZN/EUR -10% | AZN/EUR +10% | AZN/EUR -10% |
| Mənfəət və zərərə təsiri | 40,655 | (40,655) | (142,079) | 142,079 |

Valyuta məzənnələrindəki bu cür dəyişikliklərin Bankın mənfəət və ya zərərinə təsirindən başqa, kapitala hər hansı təsiri yoxdur. Risk, yalnız Bankın funksional valyutasından fərqli valyutalarda ifadə olunan pul qalıqları üçün hesablanır.

**Açıq valyuta mövqeyi limitləri**. Azərbaycan Respublikası Mərkəzi Bankının Açıq Valyuta Mövqeyi Limitlərinin Müəyyən Edilməsi və Tənzimlənməsi haqqında Qaydalarına uyğun olaraq, Bankın hər hansı bir valyuta üzrə açıq valyuta mövqeyi Bankın məcmu kapitalının 10%-dən, bütün xarici valyutalar üzrə isə 20%-dən artıq olmamalıdır.

Rəhbərlik 31 dekabr 2010-cu il tarixinə yerli qanunvericiliyə uyğun müəyyən edilmiş açıq valyuta mövqeyi limitlərinə riayət olunduğunu hesab edir. Bankın yerli qanunvericiliyə uyğun müəyyən edilmiş açıq valyuta mövqeyi onun yerli standartlara uyğun hazırlanmış hesabatları əsasında hesablanır və bu hesablama Bankın hazırkı maliyyə hesabatlarında göstərilən məlumatlardan əhəmiyyətli dərəcədə fərqlənə bilər.

***Faiz dərəcəsi riski.*** Bank bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. Bu cür dəyişikliklər nəticəsində faiz marjaları arta bilər, lakin faiz dərəcələri üzrə gözlənilməyən dəyişikliklər baş verdiyi təqdirdə faiz marjaları həmçinin azala və ya zərərin yaranmasına səbəb ola bilər. Rəhbərlik faiz dərəcələrinin dəyişməsinin qəbul edilə bilən səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Aşağıdakı cədvəldə Bankın məruz qaldığı faiz dərəcəsi riski üzrə ümumi təhlil əks olunur

| Vergidən əvvəlki mənfəətə təsir: | 31 dekabr 2010 | | 31 dekabr 2009 | |
|---|---|---|---|---|
| | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi -1% | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi -1% |
| **Aktivlər:** | | | | |
| Müştərilərə verilmiş kreditlər | 627,811 | (627,811) | 942,427 | (942,427) |
| **Öhdəlikər:** | | | | |
| Banklara ödəniləcək vəsaitlər | - | - | (4,016) | 4,016 |
| Müştəri hesabları | (113,964) | 113,964 | (130,258) | 130,258 |
| Müddətli borc öhdəlikləri | (445,590) | 445,590 | (673,491) | 673,491 |
| **Vergidən əvvəlki mənfəətə olan xalis təsir** | 68,257 | (68,257) | 134,662 | (134,662) |

**28 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)**

Həssaslıq təhlili aparakən Bank aşağıdakı mülahizələri irəli sürür:

i. Həssaslıq təhlili müəssisənin bu açıqlamaları növbəti dəfə təqdim edəcəyi dövrə qədər müddət ərzində baş verə biləcək bütün dəyişiklikləri əks etdirir. Açıqlamaların növbəti təqdim olunma dövrü adətən növbəti illik hesabat dövrü ilə üst-üstə düşür.

ii. Həssaslıq təhlili balans tarixində müvafiq risk dəyişənində baş verə biləcək dəyişikliyin mövcud risklərə tətbiq edildiyi təqdirdə, cari dövr üzrə mənfəət/zərər və səhmdar kapitalına təsiri əks etdirir.

iii. İllik LIBOR dərəcələrindəki mümkün dəyişiklik 2% təşkil edir.

iv. Bank bütün mümkün dəyişikliklərin deyil, yalnız müvafiq risk dəyişənində mümkün ola biləcək dəyişikliklərin limitləri çərçivəsində təsirini açıqlayır.

APİK və Əməliyyat Departamenti Bankın faiz dərəcələrindəki dəyişikliklərdən qazanc əldə etməsini təmin etmək məqsədilə, bu riskin aşağıdakı qaydada idarə edilməsinə görə məsuliyyət daşıyır:

i. yerli və beynəlxalq bazarlarda faiz dərəcələrinin dəyişmə meyllərin müntəzəm monitorinqi və təhlili;

ii. yerli bazarın xüsusiyyətlərini nəzərə alaraq uzun faiz dərəcəsi mövqelərinin qorunub saxlanması; və

iii. Bankın faiz dərəcələrindəki dəyişikliklərə qarşı həssaslığının monitorinqi və qiymətləndirilməsi və bu dəyişikliklərin Bankın mənfəətinə təsiri.

Bank öz maliyyə alətləri üzrə faiz dərəcələrinə nəzarət edir. Bankın baş rəhbərliyi tərəfindən təhlil edilmiş hesabatlara əsaslanan faiz dərəcələri aşağıdakı cədvəldə göstərilir:

| | 2010 | | | | 2009 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| *İllik %* | **AZN** | **ABŞ dolları** | **Avro** | **Digər** | **AZN** | **ABŞ dolları** | **Avro** | **Digər** |
| **Aktivlər** | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | - | - | - | - | - | - | - |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | - | - | - | - | - | - | - | - |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 4-48 | 8-40 | 9-30 | - | 4,5-48 | 9-40 | 11-30 | - |
| **Öhdəliklər** | | | | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | - | - | - | - | - | 16 | - | - |
| Müştərilərin müddətli depozitləri | 6-20 | 6-21 | 6-21 | 15-18 | 6-24 | 6-22 | 6-21 | 18 |
| Müddətli borc öhdəlikləri | 1-16 | 6-16 | - | - | 1-18 | 16-17.5 | - | - |

Yuxarıdakı cədvəldə göstərilən “-“ işarəsi Bankın müvafiq valyutada aktiv və öhdəliklərə malik olmadığını bildirir.

## 28 Maliyyə Risklərinin Idarə Edilməsi (davamı)

***Coğrafi risk.*** 31 dekabr 2010-cu il tarixində Bankın aktiv və öhdəliklərinin coğrafi təhlili aşağıda göstərilir:

| *Azərbaycan Manatı ilə* | **Azərbaycan Respublikası** | **İƏİT-yə üzv Olan ölkələr** | **İƏİT-yə üzv olmayan ölkələr** | **Cəmi** |
|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 3,381,317 | - | - | 3,381,317 |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | 76,706 | 131 | 14,165 | 91,002 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 62,871,695 | - | - | 62,871,695 |
| Satıla bilən investisiya qiymətli kağızları | 156,800 | - | - | 156,800 |
| Digər maliyyə aktivləri | 7,181 | - | - | 7,181 |
| **Cəmi maliyyə aktivləri** | **66,493,699** | **131** | **14,165** | **66,507,995** |
| **Qeyri-maliyyə aktivləri** | **6,557,971** | - | - | **6,557,971** |
| **Cəmi aktivlər** | **73,051,670** | **131** | **14,165** | **73,065,966** |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | - | - | - | - |
| Müddətli borc öhdəlikləri | 44,559,001 | - | - | 44,559,001 |
| Müştəri hesabları | 11,396,439 | - | - | 11,396,439 |
| **Cəmi maliyyə öhdəlikləri** | **55,955,440** | - | - | **55,955,440** |
| **Qeyri-maliyyə öhdəlikləri** | **192,672** | - | - | **192,672** |
| **Cəmi öhdəliklər** | **56,148,112** | - | - | **56,148,112** |
| **Balansdakı maliyyə alətləri üzrə xalis mövqe** | **16,903,558** | **131** | **14,165** | **16,917,854** |
| **Kreditlərlə bağlı öhdəliklər** | **8,632,879** | **-** | **-** | **8,632,879** |

## 28 Maliyyə Risklərinin Idarə Edilməsi (davamı)

31 dekabr 2009-cu il tarixində Bankın aktiv və öhdəliklərinin coğrafi təhlili aşağıda göstərilir:

| *Azərbaycan Manatı ilə* | **Azərbaycan Respublikası** | **İƏİT-yə üzv olan ölkələr** | **İƏİT-yə üzv olmayan ölkələr** | **Cəmi** |
|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6,737,029 | - | - | 6,737,029 |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | 75,826 | 37 | - | 75,863 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 44,275,104 | - | - | 44,275,104 |
| Satıla bilən investisiya qiymətli kağızları | 156,800 | - | - | 156,800 |
| Digər maliyyə aktivləri | 7,228 | - | - | 7,228 |
| **Cəmi maliyyə aktivləri** | **51,251,987** | **37** | **-** | **51,252,024** |
| **Qeyri-maliyyə aktivləri** | **3,740,191** | **-** | **-** | **3,740,191** |
| **Cəmi aktivlər** | **54,992,178** | **37** | **-** | **54,992,215** |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 401,550 | - | - | 401,550 |
| Müddətli borc öhdəlikləri | 26,588,006 | - | - | 26,588,006 |
| Müştəri hesabları | 13,616,624 | - | - | 13,616,624 |
| **Cəmi maliyyə öhdəlikləri** | **40,606,180** | **-** | **-** | **40,606,180** |
| **Qeyri-maliyyə öhdəlikləri** | **280,875** | **-** | **-** | **280,875** |
| **Cəmi öhdəliklər** | **40,887,055** | **-** | **-** | **40,887,055** |
| **Balansdakı maliyyə alətləri üzrə xalis mövqe** | **14,105,123** | **37** | **-** | **14,105,160** |
| **Kreditlərlə bağlı öhdəliklər** | **3,710,441** | **-** | **-** | **3,710,441** |

Aktivlər, öhdəliklər və kreditlərlə bağlı öhdəliklər adətən qarşı tərəfin fəaliyyət göstərdiyi ölkə üzrə təsnifləşdirilmişdir. Nağd pul, qiymətli metallar, binalar və avadanlıqlar fiziki olaraq saxlanıldığı ölkə üzrə təsnifləşdirilmişdir.

## 28 Maliyyə Risklərinin Idarə Edilməsi (davamı)

***Digər risk konsentrasiyaları.*** Rəhbərlik, verilmiş kreditlərin ümumi məbləği xalis aktivlərin 10%-dən yuxarı olan borcalanlar haqqında məlumatları əks etdirən hesabatlara əsasən kredit riski üzrə konsentrasiyaya nəzarət edir və bu cür məlumatları açıqlayır. 31 dekabr 2010 və 2009-cu il tarixlərində Bankın risklər üzrə əhəmiyyətli konsentrasiyası olmamışdır.

Rəhbərlik hesabat tarixində məruz qaldığı risklər üzrə kəmiyyət göstəricilərini qiymətləndirərək risk konsentrasiyalarını müəyyən edir. Bu açıqlama, Bank daxilində əsas rəhbər işçilərə təqdim edilmiş məlumatlara əsaslanır və xarici valyuta, kredit və faiz riskləri üzrə konsentrasiya təhlillərini əks etdirir.

***Likvidlik riski.*** Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır. Bank hər gün overnayt depozitləri, müştəri hesabları üzrə hesablaşmaların aparılması, depozitlərin ödənilməsi, kreditlərin verilməsi və zəmanətlər və pul vəsaitləri vasitəsilə hesablaşmalar aparılan derivativ maliyyə vasitələri üzrə ödənişlər üçün mövcud olan pul vəsaitlərindən istifadə etmək riskinə məruz qalır. Bank yuxarıda qeyd olunan bütün tələblər üzrə öhdəliklərin eyni zamanda yerinə yetirilməsi üçün kifayət qədər nağd vəsait saxlamır, belə ki, təcrübəyə əsasən həmin öhdəliklərin yerinə yetirilməsi üçün pul vəsaitlərinin lazımi səviyyəsini kifayət qədər dəqiqliklə proqnozlaşdırmaq olar. Likvidlik riskinin idarə edilməsi Bankın İdarə heyətinə həvalə edilib.

Bank əsasən digər banklara ödəniləcək vəsaitlərdən, hüquqi /fiziki şəxslərdən cəlb edilmiş depozitlərdən ibarət olan davamlı maliyyələşdirmə bazasının saxlanması və həmçinin likvidlik üzrə gözlənilməyən tələblərin tez bir zamanda və asanlıqla yerinə yetirilməsi imkanına malik olmaq üçün likvid aktivlərin diversifikasiya edilmiş portfellərinə sərmayə qoymağa çalışır.

Bankda likvidliyin idarə edilməsi aşağıdakı tədbirlərin həyata keçirilməsini tələb edir: öhdəliklərin ödəmə müddətində yerinə yetirilməsi üçün zəruri olan likvid aktivlər üzrə təhlilin aparılması; müxtəlif maliyyələşdirmə mənbələrindən istifadənin təmin edilməsi; maliyyələşdirmə ilə bağlı problemlərin yaranacağı təqdirdə planların mövcud olması və qanunvericilikdə nəzərdə tutulan balans üzrə likvidlik əmsallarına riayət edilməsinə nəzarətin aparılması. Bank likvidlik əmsalını ARMB-nin tələblərinə uyğun olaraq hər ay hesablayır. Həmin əmsal aşağıda göstərilir:

- Yüksək likvidli aktivlərin tələb edildikdə ödənilən öhdəliklərə nisbəti kimi hesablanan ani likvidlik əmsalı; 31 dekabr 2010-cu il tarixində bu əmsal 30% (2009: 30%) təşkil etmişdir.

ARMB-nin təlimatlarına əsasən Bank ani likvidlik əmsalını gündəlik orta likvid aktivlərin gündəlik orta likvid öhdəliklərə nisbəti kimi hesablayır. Bu əmsal Bankın yerli standartlara uyğun hazırlanmış maliyyə hesablarından çıxarılan qalıqlara əsasən hesablanır.

Hesabat Departamenti maliyyə aktivləri və öhdəlikləri üzrə likvidlik profilinə dair məlumat əldə edir. Bundan sonra, Hesabat Departamenti Bankda kifayət qədər likvidliyin təmin edilməsi məqsədilə, əsasən banklardakı depozitlərdən və digər banklararası kreditlərdən ibarət olan qısamüddətli likvid aktivlər üzrə portfelin adekvatlığını təmin edir.

Kredit Departamenti likvidlik mövqeyinə hər gün nəzarət edir və mütəmadi olaraq standart və daha əlverişsiz bazar şərtlərini əhatə edən müxtəlif ssenarilər əsasında likvidlik üzrə həssaslıq testləri aparır. Kredit Departamenti funksiyaları aşağıdakılardır:

i. ARMB-nin minimum likvidlik tələblərinə riayət edilməsi (aktiv və öhdəliklərin faiz nisbəti 30%-dən az olmamalıdır);

ii. pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və lazım olduqda bu barədə APİK və İdarə Heyətinə hesabat verilməsi;

iii. likvidlik konsentrasiyası riski baxımından iri əmanətçilərin monitorinqi;

iv. lazım olduqda, orta və qısamüddətli borc vəsaitlərinin əldə edilməsi üçün daxili və beynəlxalq bazarlarda fəal iştirakın təmin edilməsi; və.

v. Bankın kredit fəaliyyəti ilə əlaqədar olaraq pul vəsaitləri hərəkətinin monitorinqi

## 28 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Bank 31 dekabr 2010-cu il tarixinə aşağıda göstərildiyi kimi gözlənilən ödəmə müddətlərinə və likvidlik çatışmazlığına nəzarət edir:

| *Azərbaycan Manatı ilə* | **Tələb edilənədək və 1 aydan az** | **1-3 ay ərzində** | **3-12 ay ərzində** | **1 ildən Çox** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 3,381,317 | - | - | - | 3,381,317 |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | 91,002 | - | - | - | 91,002 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 960,708 | 2,318,448 | 28,972,698 | 30,619,841 | 62,871,695 |
| Satıla bilən investisiya qiymətli kağızları | 156,800 | - | - | - | 156,800 |
| Digər maliyyə aktivləri | 7,181 | - | - | - | 7,181 |
| **Cəmi maliyyə aktivləri** | **4,597,008** | **2,318,448** | **28,972,698** | **30,619,841** | **66,507,995** |
| **Öhdəliklər** | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | - | - | - | - | - |
| Müştəri hesabları | 2,783,624 | - | 6,746,004 | 1,866,811 | 11,396,439 |
| Müddətli borc öhdəlikləri | 100,331 | 1,584,870 | 16,760,180 | 26,113,620 | 44,559,001 |
| **Cəmi maliyyə öhdəlikləri** | **2,883,955** | **1,584,870** | **23,506,184** | **27,980,431** | **55,955,440** |
| **31 dekabr 2010-cu il tarixinə xalis likvidlik çatışmazlığı** | **1,713,053** | **733,578** | **5,466,514** | **2,639,410** | **10,552,555** |
| **31 dekabr 2010-cu il tarixinə məcmu likvidlik çatışmazlığı** | **1,713,053** | **2,446,631** | **7,913,145** | **10,552,555** | |

## 28 Maliyyə Risklərinin Idarə Edilməsi (davamı)

31 dekabr 2009-cu il tarixində gözlənilən ödəmə müddətlərinə görə təhlil aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Tələb edilənədək və 1 aydan az** | **1-3 ay ərzində** | **3-12 ay ərzində** | **1 ildən çox** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6,737,029 | - | - | - | 6,737,029 |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | 75,863 | - | - | - | 75,863 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 1,468,152 | 1,181,582 | 15,121,238 | 26,504,132 | 44,275,104 |
| Satıla bilən investisiya qiymətli kağızları | 156,800 | - | - | - | 156,800 |
| Digər maliyyə aktivləri | 7,228 | - | - | - | 7,228 |
| **Cəmi maliyyə aktivləri** | **8,445,072** | **1,181,582** | **15,121,238** | **26,504,132** | **51,252,024** |
| **Öhdəliklər** | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 401,550 | - | - | - | 401,550 |
| Müştəri hesabları | 4,361,754 | 1,641,375 | 4,459,233 | 3,154,262 | 13,616,624 |
| Müddətli borc öhdəlikləri | 717,016 | - | 5,880,970 | 19,990,020 | 26,588,006 |
| **Cəmi maliyyə öhdəlikləri** | **5,480,320** | **1,641,375** | **10,340,203** | **23,144,282** | **40,606,180** |
| **31 dekabr 2009-cu il tarixinə xalis likvidlik çatışmazlığı** | **2,964,752** | **(459,793)** | **4,781,035** | **3,359,850** | **10,645,844** |
| **31 dekabr 2009-cu il tarixinə məcmu likvidlik çatışmazlığı** | **2,964,752** | **2,504,959** | **7,285,994** | **10,645,844** | |

Bank rəhbərliyinin fikrincə aktiv və öhdəliklərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və/və ya nəzarət olunan uyğunsuzluğu Bankın idarə olunması üçün əsas amillərdir. Ümumiyyətlə, banklarda bu göstəricilərə tam uyğunluq təmin edilmir. Belə ki, əməliyyatlar çox zaman qeyri-müəyyən müddətə aparılır və fərqli xarakter daşıyır. Bu göstəricilər üzrə uyğunsuzluq potensial olaraq gəlirliliyi artıra, lakin eyni zamanda zərərin baş vermə riskini yüksəldə bilər. Aktiv və öhdəliklərin ödəmə müddətləri, eləcə də ödəmə müddətləri tamamlandıqdan sonra faiz hesablanan öhdəliklərin münasib dəyərlə əvəz edilməsi imkanı, Bankın likvidliyinin və faiz dərəcələri və mübadilə məzənnələrinin dəyişəcəyi halda onun risklərinin qiymətləndirilməsi üçün əsas amillər hesab olunur.

Rəhbərlik hesab edir ki, müştəri hesablarının böyük hissəsinin "tələb edilənədək" statusuna malik olmasına baxmayaraq, həmin vəsaitlərin əmanətçilərin sayına və növünə görə diversifikasiyası, eləcə də Bankın təcrübəsi göstərir ki, bu cür vəsaitlər Bankın fəaliyyəti üçün uzunmüddətli və sabit maliyyə mənbəyi yaradır.

## 29 Şərti Öhdəliklər

***Məhkəmə prosedurları.*** Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Banka qarşı irəli sürülə biləcək iddialarla əlaqədar Rəhbərlik öz təxminlərinə, daxili və peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Bankın əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq orqanlar tərəfindən etiraz edilə bilər. Azərbaycan Respublikasında cərəyan edən son hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyi və mühakimələri şərh edərkən daha inandırıcı mövqe nümayiş etdirə bilər və keçmişdə nəzərdən keçirilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxa bilər.

Bunun nəticəsində Banka qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son bir təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

***Kapital məsrəfləri ilə bağlı öhdəliklər.*** 31 dekabr 2010-cu il tarixində Bankın binaları və avadanlıqları, yaxud hər hansı digər sahəsi ilə əlaqədar olaraq müqavilə üzrə kapital məsrəfləri ilə bağlı öhdəlikləri olmamışdır.

***Əməliyyat lizinqi ilə bağlı öhdəliklər.*** 31 dekabr 2010-cu il tarixində Bankın ləğv oluna bilməyən əməliyyat lizinqi ilə bağlı əhəmiyyətli öhdəlikləri olmamışdır (31 dekabr 2009: sıfır).

***Normativlərə və digər tələblərə uyğun hesablamalar.*** Rəhbərlik yerli qanunvericiliyin tələblərini şərh edərkən və Bankın aldığı borc vəsaitləri üzrə müqavilələrdə nəzərdə tutulan xüsusi şərtlərə riayət edib-etməməsini müəyyən edərkən mülahizələr irəli sürmüşdür. Bu mülahizələrə hesablamaların aparılma metodları və bu cür xüsusi şərtlərə potensial uyğunsuzluq hallarının Banka təsiri daxildir. Rəhbərlik öz yanaşmasına və istifadə etdiyi qaydalara əsasən hesab edir ki, hazırkı maliyyə hesabatlarında qeydə alınan uyğunsuzluq hallarının maliyyə hesabatlarına təsirinin müəyyən edilməsi və nəzərə alınması düzgün şəkildə aparılmışdır. Əgər rəhbərliyin yanaşmasının düzgün olmadığı sübut olunarsa, Banka qarşı cərimələr və ya digər sanksiyalar tətbiq edilə bilər.

***Kreditlərlə bağlı öhdəliklər.*** Bu maliyyə alətlərinin əsas məqsədi lazım olduqda müştərilərə maliyyə vəsaitlərinin təqdim edilməsini təmin etməkdir. Müştərinin üçüncü tərəflər qarşısında öz öhdəliklərini yerinə yetirə bilməyəcəyi halda, Bankın ödənişlər aparması ilə bağlı mütləq öhdəlikləri əks etdirən zəmanətlər kredit risk daşıyır.

Kreditlərin təqdim edilməsi üzrə öhdəliklərə kreditlər, zəmanətlər kreditlərin verilməsi üçün rəhbərlik tərəfindən təsdiqlənməmiş məbləğlərin istifadə edilməyən hissəsi daxildir. Kreditlərin verilməsi üzrə öhdəliklər ilə əlaqədar, Bank istifadə edilməmiş məbləğlərin istifadə edilməli olduğu halda, potensial olaraq istifadə edilməmiş öhdəliklərin ümumi məbləğinə bərabər məbləğdə zərərin yaranması riskinə məruz qalır. Lakin, kreditlərin verilməsi üzrə öhdəliklərin böyük hissəsi müştərilərin ödəmə qabiliyyəti ilə bağlı müəyyən tələblərə əməl etməsindən asılı olduğuna görə, ehtimal edilən zərərlərin məbləği istifadə edilməmiş öhdəliklərin ümumi məbləğindən azdır. Adətən uzunmüddətli öhdəliklər qısamüddətli öhdəliklər ilə müqayisədə daha yüksək kredit riskinə malik olduğu üçün, Bank kreditlərlə bağlı öhdəliklərin ödəmə müddətinə qədər qalan müddətə nəzarət edir.

## 29 Şərti Öhdəliklər (davamı)

Kreditlərlə bağlı öhdəliklər aşağıdakılardan ibarət olmuşdur:

| *Azərbaycan Manatı ilə* | 2010 Məbləğ | 2010 Ədalətli dəyər | 2009 Məbləğ | 2009 Ədalətli dəyər |
|---|---|---|---|---|
| Kreditlər və istifadə edilməmiş kredit xətləri | 3,466,469 | 3,466,469 | 1,285,611 | 1,285,611 |
| Zəmanət məktubları | 5,166,410 | 5,166,410 | 2,424,830 | 2,424,830 |
| **Cəmi kreditlərlə bağlı öhdəliklər** | **8,632,879** | **8,632,879** | **3,710,441** | **3,710,441** |

İstifadə edilməmiş kredit xətləri, akkreditivlər və zəmanətlər üzrə müqavilədə nəzərdə tutulan ümumi borc məbləği mütləq şəkildə pul vəsaitləri üzrə gələcək tələbləri əks etdirmir, belə ki, həmin öhdəliklərin müddəti borcalana vəsaitlər təqdim edilmədən başa çata və ya ləğv oluna bilər. 31 dekabr 2010-cu il tarixində kreditlərlə bağlı öhdəliklərin ədalətli dəyəri 8,632,879 AZN (2009: 3,710,441AZN) təşkil etmişdir. Kreditlərlə bağlı öhdəliklər aşağıdakı valyutalarda ifadə olunmuşdur:

| *Azərbaycan Manatı ilə* | 2010 | 2009 |
|---|---|---|
| Azərbaycan manatı | 8,531,829 | 2,567,574 |
| ABŞ dolları | 42,058 | 133,331 |
| Avro | 10,337 | 872,192 |
| Digər | 48,655 | 137,344 |
| **Cəmi** | **8,632,879** | **3,710,441** |

## 30 Kapitalın İdarə Edilməsi

Kapitalın idarə olunmasında Bankın məqsədi Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") kapitalın məbləği ilə bağlı müəyyən etdiyi tələblərə riayət edilməsini, Bankın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin və kapitalın adekvatlığı əmsalının 12% həcmində saxlanılması üçün kifayət qədər kapital bazasının saxlanılmasını təmin etməkdir. Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi kapital adekvatlığı əmsallarına riayət edilməsinə Bankın İdarə Heyətinin Sədri, Baş Mühasib, Daxili Audit Departamentinin Direktoru və Müşahidə Şurasının Sədri tərəfindən baxılmış və təsdiqlənmiş müvafiq hesablamalardan ibarət aylıq hesabatlar vasitəsilə nəzarət edilir. Kapitalın idarə olunmasının digər məqsədləri hər il qiymətləndirilir.

ARMB-nin kapitalın məbləği ilə bağlı mövcud tələblərinə görə banklar: (a) məcmu kapitalın minimum məbləğini 10,000,000 AZN (2009: 10,000 min AZN) həcmində saxlamalı; (b) məcmu kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ("məcmu kapitalın adekvatlığı əmsalı") minimum 12% (2009: 12%) və (c) 1-ci dərəcəli kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ("1-ci dərəcəli kapitalın adekvatlığı əmsalı") minimum 6% (2009: 6%) və ya yuxarı saxlanılmasını təmin etməlidir. ARMB-nin məcmu kapital adekvatlığı əmsallarının hesablanması məqsədilə, 31 dekabr 2010-cu il tarixinə Bankın məcmu kapitalı 17,168,893 AZN (2009: 14,091,720 AZN) təşkil edir.

Rəhbərlik 31 dekabr 2010-cu il tarixində Bank tərəfindən ARMB-nin kapitalın adekvatlığı əmsalına və kapitalın məbləği ilə bağlı bütün kənar qurumların tələblərinə riayət edildiyini hesab edir.

Bank həmçinin Kapitalın Qiymətləndirilməsi və Kapital Standartları haqqında Beynəlxalq Konvergensiya (aprel 1998-ci il tarixində yenidən işlənmişdir) və "Bazel I" adlanan bazar risklərini əks etdirən Kapital haqqında

## 30 Kapitalın İdarə Edilməsi (davamı)

Bazel Sazişinə Əlavədə (noyabr 2005-ci ildə yenidən işlənmişdir) müəyyən edilən Bazel sazişinin tələbləri əsasında hesablanmış kapitalın adekvatlığı səviyyəsinə nəzarət edir. Bankın Bazel Sazişi əsasında hesablanmış kapital strukturu aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | **2010** | **2009** |
|---|---|---|
| **1-ci dərəcəli kapital** | **16,143,470** | **13,577,330** |
| Nizamnamə kapitalı | 15,540,000 | 13,040,000 |
| Bölüşdürülməmiş mənfəət | 603,470 | 537,330 |
| Tutulmalar | 7,626 | 6,580 |
| **Cəmi 1-ci dərəcəli kapital** | **16,135,844** | **13,570,750** |
| | | |
| **2-ci dərəcəli kapital** | **1,193,049** | **680,970** |
| Cari ilin mənfəəti | 240,229 | 66,140 |
| Kapital ehtiyatları | 952,820 | 614,830 |
| Digər | | |
| **Cəmi 2-ci dərəcəli kapital** | **1,193,049** | **680,970** |
| | | |
| **Tutulmalardan əvvəl məcmu kapital** | **17,328,893** | **14,251,720** |
| Çıxılsın: investisiyalar | 160,000 | 160,000 |
| | | |
| **Cəmi məcmu kapital** | **17,168,893** | **14,091,720** |

Bank 2010 və 2009-cu illər ərzində kapitalın məbləği ilə bağlı bütün kənar qurumların tələblərinə riayət etmişdir.

## 31 Maliyyə Alətlərinin Ədalətli Dəyəri

Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Bank tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

## 31 Maliyyə Alətlərinin Ədalətli Dəyəri (davamı)

***Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə alətlərinin ədalətli dəyəri.***

Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə alətlərinin ədalətli dəyəri aşağıda göstərilir:

| | **2010** | | **2009** | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Balans dəyəri** | **Ədalətli dəyər** | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 3,381,317 | 3,381,317 | 6,737,029 | 6,737,029 |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | 91,002 | 91,002 | 75,863 | 75,863 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 62,871,695 | 62,871,695 | 44,275,104 | 44,275,104 |
| Satıla bilən investisiya qiymətli kağızları | 156,800 | 156,800 | 156,800 | 156,800 |
| Digər maliyyə aktivləri | 7,181 | 7,181 | 7,228 | 7,228 |
| **AMORTİZASİYA OLUNMUŞ MAYA DƏYƏRİNDƏ QEYDƏ ALINAN MALİYYƏ AKTİVLƏRİ** | **66,507,995** | **66,507,995** | **51,252,024** | **51,252,024** |

| | **2010** | | **2009** | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Balans dəyəri** | **Ədalətli dəyər** | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | - | - | 401,550 | 401,550 |
| Müştəri hesabları | 11,396,439 | 11,396,439 | 13,616,624 | 13,616,624 |
| Müddətli borc öhdəlikləri | 44,559,001 | 44,559,001 | 26,588,006 | 26,588,006 |
| **AMORTİZASİYA OLUNMUŞ MAYA DƏYƏRİNDƏ QEYDƏ ALINAN MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **55,955,440** | **55,955,440** | **40,606,180** | **40,606,180** |

## 31 Maliyyə Alətlərinin Ədalətli Dəyəri (davamı)

***Ədalətli dəyəri müəyyən edərkən istifadə edilən üsullar və ehtimallar.***

Ədalətli dəyər məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq fəal bazar qiyməti ilə təsdiqlənir. Bazar qiymətləri mövcud olmadıqda, Bank qiymətləndirmə üsullarından istifadə etmişdir. Fəal bazar qiyməti olmayan dəyişkən faizli maliyyə alətlərinin ədalətli dəyəri təxminən onların balans dəyərinə bərabərdir. Fəal bazar qiyməti olmayan sabit faizli maliyyə alətlərinin ədalətli dəyəri analoji kredit riskinə və ödəmə müddətinə malik yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metoduna əsaslanır.

İstifadə edilmiş diskont dərəcələri maliyyə alətinin valyutasından, ödəmə müddətindən və qarşı tərəfin kredit riskindən asılıdır. Bu dərəcələrin təhlili aşağıda göstərilir:

| *Azərbaycan Manatı ilə* | **2010** | **2009** |
|---|---|---|
| **Müştərilərə verilmiş kreditlər və avanslar** | | |
| Korporativ kreditlər | 4,50-26 | 4,50-36 |
| Fiziki şəxslərə kreditlər | 4-48 | 6-48 |
| | | |
| Digər banklara ödəniləcək vəsaitlər | - | 16 |
| Müştəri hesabları | 6-21 | 6-24 |
| Müddətli borc öhdəlikləri | 1-16 | 1-18 |

## 32 Maliyyə Alətlərinin Qiymətləndirmə Kateqoriyaları üzrə Təqdim Edilməsi

BMS 39, *Maliyyə Alətləri: Tanınması və Qiymətləndirilməsi* Standartına uyğun olaraq Bank maliyyə aktivlərini aşağıdakı kateqoriyalara təsnifləşdirir: (a) kreditlər və debitor borcları; (b) satıla bilən maliyyə aktivləri; (c) ödəniş tarixinədək saxlanılan maliyyə aktivləri və (d) mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə əks etdirilən maliyyə aktivləri ("MZƏD"). "Mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə əks etdirilən maliyyə aktivləri" kateqoriyası iki alt-kateqoriyaya bölünür: (i) ilkin uçot zamanı bu kateqoriyaya aid edilmiş aktivlər və (ii) ticarət üçün maliyyə aktivləri. 31 dekabr 2010-cu il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | **Kreditlər və debitor borcları** | **Satıla bilən aktivlər** | **Cəmi** |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| ***Pul vəsaitləri və onların ekvivalentləri*** | **3,381,317** | **-** | **3,381,317** |
| Nağd pul | 679,924 | - | 679,924 |
| ARMB-dəki qalıqlar | 2,701,393 | - | 2,701,393 |
| ***Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər*** | **91,002** | **-** | **91,002** |
| ***Müştərilərə verilmiş kreditlər və avanslar*** | **62,871,695** | **-** | **62,871,695** |
| Korporativ kreditlər | 31,928,331 | - | 31,928,331 |
| İpoteka kreditləri | 20,325,041 | - | 20,325,041 |
| Mənzil təmiri | 4,552,199 | - | 4,552,199 |
| Kənd təsərrüfatı kreditləri | 4,513,163 | - | 4,513,163 |
| İstehlak kreditləri | 399,786 | - | 399,786 |
| Ticarət və xidmət sektoruna verilmiş kreditlər | 356,626 | - | 356,626 |
| İnşaat kreditləri | 351,517 | - | 351,517 |
| Avtomobil kreditləri | 211,912 | - | 211,912 |
| Sənaye kreditləri | 128,943 | - | 128,943 |
| Kredit kartları | 104,177 | - | 104,177 |
| ***Satıla bilən investisiya qiymətli kağızları*** | **-** | **156,800** | **156,800** |
| ***Digər maliyyə aktivləri*** | **7,181** | **-** | **7,181** |
| **Cəmi maliyyə aktivləri** | **66,351,195** | **156,800** | **66,507,995** |
| **Qeyri-maliyyə aktivləri** | **6,557,971** | **-** | **6,557,971** |
| **Cəmi aktivlər** | **72,909,166** | **156,800** | **73,065,966** |

## 32 Maliyyə Alətlərinin Qiymətləndirmə Kateqoriyaları üzrə Təqdim Edilməsi (davamı)

31 dekabr 2009-cu il tarixinə maliyyə aktivlərinin müəyən edilmiş qiymətləndirmə kateqoriyaları ilə üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan Manatı ilə* | **Kreditlər və debitor borcları** | **Satıla bilən aktivlər** | **Cəmi** |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| ***Pul vəsaitləri və onların ekvivalentləri*** | **6,737,029** | **-** | **6,737,029** |
| Nağd pul | 5,486,772 | - | 5,486,772 |
| ARMB-dəki qalıqlar | 1,250,257 | - | 1,250,257 |
| ***Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər*** | **75,863** | **-** | **75,863** |
| ***Müştərilərə verilmiş kreditlər və avanslar*** | **44,275,104** | **-** | **44,275,104** |
| Korporativ kreditlər | 21,511,273 | - | 21,511,273 |
| İpoteka kreditləri | 9,635,548 | - | 9,635,548 |
| Mənzil təmiri | 6,746,663 | - | 6,746,663 |
| Kənd təsərrüfatı kreditləri | 3,148,981 | - | 3,148,981 |
| İstehlak kreditləri | 1,151,716 | - | 1,151,716 |
| Ticarət və xidmət sektoruna verilmiş kreditlər | 390,313 | - | 390,313 |
| İnşaat kreditləri | 447,819 | - | 447,819 |
| Avtomobil kreditləri | 334,140 | - | 334,140 |
| Sənaye kreditləri | 826,178 | - | 826,178 |
| Kredit kartları | 82,473 | - | 82,473 |
| ***Satıla bilən investisiya qiymətli kağızları*** | **-** | **156,800** | **156,800** |
| ***Digər maliyyə aktivləri*** | **7,228** | **-** | **7,228** |
| **Cəmi maliyyə aktivləri** | **51,095,224** | **156,800** | **51,252,024** |
| **Qeyri-maliyyə aktivləri** | **3,740,191** | **-** | **3,740,191** |
| **Cəmi aktivlər** | **54,835,415** | **156,800** | **54,992,215** |

## 33 Əlaqəli Tərəflərlə Əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni Bankın nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin yalnız hüquqi formasına deyil, iqtisadi məzmununa da diqqət yetirilir.

31 dekabr 2010 və 31 dekabr 2009-cu il tarixlərinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2010** | | **31 dekabr 2009** | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Müştərilərə verilmiş kreditlər** | | **67,437,074** | | **48,285,275** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | 1,048,432 | | 1,158,600 | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | 212,789 | | 4,573 | |
| **Ehtimal edilən zərər üzrə ehtiyat** | | **(4,565,379)** | | **(4,410,171)** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | (22,785) | | (69,572) | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | (7,867) | | (148) | |
| **Müştəri hesabları** | | **11,396,439** | | **13,616,624** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | 1,923 | | 10 | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | 89,421 | | 7,755 | |

31 dekabr 2010 və 31 dekabr 2009-cu il tarixlərində tamamlanan illər üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

| | **31 dekabr 2010** | | **31 dekabr 2009** | |
|---|---|---|---|---|
| | **Əlaqəli şəxslərlə əməliyyatlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli şəxslərlə əməliyyatlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Faiz gəliri** | | **6,310,710** | | **4,672,318** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | 106,898 | | 137,032 | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | 97,553 | | 803 | |
| **Faiz xərci:** | | **(3,230,840)** | | **(2,575,851)** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | - | | (252) | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | - | | - | |
| **Ehtimal edilən zərər üzrə ehtiyat** | | **(1,883,976)** | | **(1,614,821)** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | - | | (69,572) | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | (2,955) | | (148) | |
| **Haqq və komissiya gəlirləri:** | | **476,437** | | **868,452** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | 4,476 | | 9,241 | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | 2,693 | | 2,079 | |
| **Əməliyyat xərcləri** | | **(1,356,842)** | | **(1,368,786)** |
| *- bankın rəhbər inzibatçı işçiləri* | (176,255) | | (195,344) | |

## 33 Əlaqəli Tərəflərlə Əməliyyatlar (davamı)

31 dekabr 2010 və 31 dekabr 2009-cu il tarixlərinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə digər öhdəliklər aşağıda göstərilir:

| | **2010** | | **2009** | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Digər əlaqəli müəssisələr** | **Baş rəhbərlik** | **Digər əlaqəli müəssisələr** | **Baş rəhbərlik** |
| İlin sonuna Bank tərəfindən açılmış zəmanətlər | | | | |
| İstifadə edilməmiş kredit xətləri | 10,000 | 7,745 | - | - |

Baş rəhbərliyə ödənişlər haqqında məlumat aşağıda təqdim edilir:

| *Azərbaycan Manatı ilə* | **2010** | **2009** |
|---|---|---|
| *Qısamüddətli ödənişlər - əmək haqları* | 176,255 | 195,344 |
| **Cəmi** | **176,255** | **195,344** |

31 dekabr 20010-cu il tarixində tamamlanan il ərzində İdarə Heyətinin üzvlərindən ibarət olan baş rəhbərliyin əmək haqqı xərcləri maaş və müavinətlərdən ibarət olmuş və BMS 19 "İşçilərə verilən mükafatlar" Standartına uyğun olaraq qısamüddətli ödənişlər kimi təsnifləşdirilmişdir.
.

## 34 Hesabat Dövründən Sonra Baş Vermiş Hadisələr

Hesabat dövründən sonra açıqlanma üçün heç bir vacib əməliyyat qeydə alınmamışdır.